## MÜNDƏRİCAT

**Müəllifdən**......................................................................
**Tərcümeyi-hal**...................................................................
**Nəriman Həsənzadə.** Yaşa səni, Xuramanım!.............
**Natiq Rəsulzadə.** Xuraman xanımın geniş qəlbi.........
**Çingiz Abdullayev.** Xuraman xanımı tanımaq mənim üçün xüsusi bir hadisə oldu.........................................
**Allahverən İsmayılov.** Xeyir əməllərin sahibi, şair bacım Xuraman xanımın "Sənə məktub yazacam" şeirinə nəzirə.............................
**Vahid Əziz.** Xuraman xanım Muradovanın "Sənə məktub yazacam" şeirinə nəzirə....................................
**Şəmsəddin Kuzəçi.** Azərbaycanın qüruru Xuraman Muradova........
**Ağalar İdrisoğlu.** İncə və duyğulu şeirlər müəllifi........
**Nəcibə İlkin.** Haqqın, xeyirxahlığın söz sahibi.............
**Xəyalə Zərrabqızı.** Türk qanlı, İslam imanlı, mələk simalı, Turan sevdalı şərəfli Azərbaycan qadını.................

## VƏTƏN EŞQİ – TURAN SEVDASI...

Azərbaycan.....................................................................
Gözün aydın, Ay Vətən!................................................
Vətən...............................................................................
Əsrin Qəhrəmanı olan Komandan........................
Zərifə xanım.....................................
Ay Laçın, can Laçın........................................................
Səcdənə gəlmişəm, Şuşam!.......................................
Azərbaycan – Türkiyə..............................................

Turan elləri...............................................................
Zəfər nəğməsi............................................................
Şəhidlər xiyabanı.........................................................................
Xocalı harayım.............................................................
Vətən adlı şəhidlər......................................................
Ayasofiyam.......................................................................
Türkiyəm..................................................................
Necə çəkim mən bu dərdi?!..........................................
Dayan, Deprem!.....................................................
Salam sənə əziz Vətən!
Özbəkistan, Özbəkistan!...........................................
Özbəkistanım mənim
Sən də ana Vətənim!....................................................
Azərbaycan, Özbəkistan.............................................
Turan sevdalıları...........................................
Qazaxıstan..........................................................
Vətənin oğulları.................................................................
Səmərqəndin ulduzları................................................
Qırğızıstan, əziz Vətən!.........................................
Qarabağın köksündən Yolumuz Tanrı dağa..................
Türkmən anam.....................................................
Naxçıvanım..................................................
"Sürgün taleli..."..................................

**HALALLIQ BEŞİYİM...**

Ay Ana.........................................................
Anama oxşamaq istəyirəm.........................................
Ata.............................................................................

Oğluma (Oğlum Elçinə)............................................
Qızım Laçına.....................................................
Sevdiklərimizə dəyər verək.....................................
Nişanəsiz gedən qız (Bacım Südabəyə)...........................
Nənəmin samovarı....................................................
Kəndimiz yada düşür...................................................
Goranboyum.........................................................
Mən göy adamıyam..................................................
Döz, ürəyim..........................................................
Haqq aşiqiyəm......................................................
Ağaclar...............................................................
İnsanla yarıdır sözü....................................................
Yenə gəlsin Ramazan.......................................
Çalış.............................................
Hər kəsdə olaydı............................................
Ürəyim.................................................................
Qadınlar..............................................................

## YARIM QALAN MƏKTUBLAR

Sənə məktub yazacam...............................................
Elə küsərəm səndən.........................................
Darıxsan, oxu, ağla....................................................
Unutmağa haqqım var..............................................
Səni yuxuda gördüm................................................
Söylə, harda qalmısan.............................................
Gizli məhəbbət..............................................
Ötdü sevgi qatarı.............................................
Hərdən yalan danış.........................................

Bir şəhərdə yaşayırıq......................................
O gedən gəlməyəcək..........................................................
İzlərimiz................................................................
Sevgi işığı..........................................................
Bir gün olmayacam..........................................................
Artıq o yerlərə dönməyəcəyəm..........................................
Səni yaşadacam.........................................................
Demişdin ki.............................................................
Çıx get məndən uzaqlara...............................................
Unutma məni............................................................
Uzaqlara getmə.........................................................
Küsdüm mən...............................................................
Sənə nə söyləyim..........................................................
Unuda bilsəm əgər.........................................................
Bir sevgi hekayəsi........................................................
Mən gedər oldum...........................................................
Mən göyləri sevərəm...............................................
Gəl..............................................................................
Ayrılıq küləkləri............................................................
Kimim var ki dağlarda?.................................................
Görən darıxırmı heç?!...................................................
Xəyalımda yenə sən...................................................
Daha yuxulara inanmıram mən....................................
Gələcəyəm yenə mən........................................................
Yenidən dünyaya gəlmək istəyirəm...................................
Yarımçıq məktublar.......................................................
Gələcək baharda yenə gələcəm....................................
Bir gün çıxıb gedəsən............................................

Səni unutmalıyam.........................................................
Yaşamaq istərsən dəlicəsinə..............................................
Sənə getməyən yollar................................................
Boşuna ümidlər verməyin...............................................
Kimsəyə söyləyəməm......................................................
Sən yox kimisən.........................................................
Darıxmaq............................................................
Kirpiklərimin yaddaşında qalıb sevdalı baxışın.............
Sevimli adın gedəcək................................................
Dönmədi geri..................................................
Allahım, bağışla məni......................................
Oğlum.........................................................
Mən sevgi şairiyəm.........................................
Ana dilim.......................................................
Ölümdən qorxmayın.............................................
Bu bahar sevgimiz xəzana döndü.......................
Sevmişdim səni..............................................................
Yenə sən vardın.........................................................
Nəyimə lazımsan sən hundan belə...............................
Ona yalan söylədim.........................................
Sən yoxsan.......................................................................
Payız yağışları...............................................
Payız gəlir.......................................................
Düşüncələr.....................................................................
**Poema**
Nəbi və Həcər dastanı................................................

## Müəllifdən...

## Dəyərli oxucum!

Kilometrlərin uzağında, dünyanın müxtəlif coğrafiyalarında olmasına rəğmən ürəyi böyük Türküstan eşqiylə - Turan sevdasıyla döyünən qan qardaşım, qandaşım, yurddaşım, soydaşım!

Uca Yaradanın adı ilə Sizləri səmimi qəlbdən, dərin hörmət və ehtiramla salamlayıram!

Salam olsun, Azərbaycan!

Salam olsun, Türkiyəmiz!

Salam olsun, Özbəkistan!

Salam olsun, Qazaxıstan!

Salam olsun Qırğızıstan, Türkmənistan! Salam olsun böyük Türküstan!

Salam olsun Kərkükdə ürəyi bizimlə döyünən Türkmən

Analarımıza!

Salam olsun Altaylardan, Sibiryadan Tuvaya!

Salam olsun Xakaslardan Tatarıstana!

Salam olsun Başqırdıstandan Çuvaşiyaya! Salam olsun Krıma! Salam olsun dəyərli Türk insanlarının yaşadığı bütün doğma Turan Ellərinə!

Salam olsun Turanın ürəyi Tanrı dağına!

Salam olsun mənim gözəl Qarabağıma!

Mənim ürəyimdən misralara hopan pıçıltılara uzaq-uzaq ellərdə həmdəm olan Əziz Oxucum!

**Əlinizdəki bu kitab dünyanın mən baxan tərəfdən görünən hissəsidir...**

**Əlinizdəki bu kitab vücuduma, ruhuma sığmayan İlahi eşqimin sözdə təcəllisidir... Varlığımın aynası, qəlb evimin güzgüsü, taleyimin səhifələrdəki əksidir..**

**Əlinizdəki bu kitab bəzən hər misrasını kağıza köçürdükcə dərindən hiss etdiyim ürəyimin göynərtisi, ruhumun sızıltısıdır. Hayqırmaq istədiyim içimdəki Haqq səsidir.**

**Əlinizdəki bu kitab "Halallıq beşiyim"dir... Xəmirimi, mayamı halallıqdan yoğuran Atamın yaddaşımda şəkillənən obrazıdı... Yaşının hər dönəmində körpə uşaq saflığını qoruyan ismətli Anamın – sadə kəndli xanımın gözlərimdən getməyən saf, ismətli, məsum baxışlarıdır, övladlarıma – qızım Laçına, oğlum Elçinə verdiyim Ana xeyir-duasıdır...**

**Əlinizdəki bu kitab köksümdə qübar bağlayan nakam sevginin yarım qalan məktublarıdır...**

**Əlinizdəki bu kitab misralara düzdüyüm Turan sevdamdı, Sizinlə**

**Xarıbülbül ətirli Qarabağımdan Könüllər sultanı Tanrı dağına varan yol yoldaşlığımdı...**

**Yolçu yolunda gərək, mənim əziz oxucum! Yolumuz aydın olsun!**

**Sayğılarla: Sizin Xuraman Muradova**

**Əlişir Nəvai adına Daşkənd Dövlət Universitetinin fəxri professoru, Özbəkistan Respublikası Beynəlxalq**

Ədəbiyyat, Sənət, İctimai Fənlər Akademiyasının fəxri akademiki,

Türk Dünyası Araşdırmaları

Beynəlxalq Elmlər Akademiyasının fəxri professoru,

Türk dünyası "Onur" və "Altın yıldız" medallı,

"Humay" Milli Mükafatı laureatı,

Qırğızıstan Respublikası "Çingiz Aytmatov" adına medal sahibi,

Qırğızıstan Təhsil Nazirliyinin "Altın qələm" mükafatı laureatı,

"Vektor" Beynəlxalq Elmlər Akademiyasının fəxri professoru,

Azərbaycan Yazıçılar Birliyinin üzvü,

Türkiyə Yazarlar Birliyinin üzvü,

Özbəkistan Yazıçılar İttifaqının fəxri üzvü,

Türk dünyası sevdalısı...

TƏRCÜMEYİ-HAL

Xuraman İsmayıl qızı Muradova 22 avqust 1965-ci ildə Goranboy rayonu Xanqərvənd kəndində anadan olmuşdur. Əslən

Laçın rayonundandır. 1982-ci ildə Azərbaycan Dövlət Memarlıq

Universtetinə daxil olmuş və 1988 -ci ildə oranı bitirmişdir. 1990-cı ildən etibarən Azərbaycan Dövlət Maddi Texniki Təchizat Nazirliyində mühəndis kimi fəaliyyət göstərmiş və elə həmin vaxtdan sahibkarlıqla məşğul olmağa başlamışdır. 2009-cu ildə özəl Tibb

**Mərkəzi -“Milan Hospitalı”yaratmış və bu günə qədər həmin hospitalın təsisçi direktoru kimi fəaliyyət göstərir. Tibb sahəsində gördüyü işlərə görə 2019-cu ildən etibarən Avropa Tibb Assosiasiyasının - EMA-nın üzvüdür.**

**Xuraman Muradova sahibkar kimi fəaliyyət göstərdiyi bu illərdə bir çox fəxri fərman və mükafatlarla təltif olunub:**

**1. 2021-ci ilin dekabr ayında Avropa Tibb Assosiasiyası tərəfindən İdarəçilik üzrə Oksford Akademik İttifaqının Fəxri professoru adına layiq görülüb.**

**2. 2022-ci ildən Azərbaycan Yazıçılar Birliyinin və Türkiyə Yazarlar Birliyinin üzvüdür.**

**3. 2023-cü ildə “Vektor” Beynəlxalq Elmlər Akademiyasının fəxri prfessoru adına, 2023-cü ildə “Humay” Milli mükafatına layiq görülüb.**

**4. 2023-cü ildən Türkiyə Onur medalı laueratıdır.**

**5. 2023-cü ildəTürk dünyası Araşdırmaları Uluslararası Elmlər**

**Akademiyasının Fəxri Professoru adına və Altın Yıldız medalına layiq görülüb.**

**6. Azərbaycan Silahlı Qüvvələrinin general-leytenantı, Xüsusi Təyinatlı Qüvvələrin Komandanı Hikmət Mirzəyev tərəfindən, 44 günlük Vətən Müharibəsi dövründə şəhid ailələrinə, qazilərə sahibkarı**

olduğu "Milan Hospital" özəl klinikasında təmənnasız xidmətlərinə, müalicə dəstəyinə görə Fəxri Fərman, Fəxri döş nişanları və "Vətənim, Bayrağım, Şərəfim" mükafatına layiq görülmüşdür.

**7.** 44 günlük Vətən müharibəsində cəbhəyə göstərdiyi köməyə, Qazilərimizə göstərdiyi təmənnasız müalicələrə görə bir neçə Rayon İcra Hakimiyyəti tərəfindən, müharibədən sonrakı dövrdə nümayiş etdirdiyi birliyə, bərabərliyə, arxa cəbhədə yaralı əsgər, zabitlərə göstərdiyi müayinə-müalicə, diqqət, qayğı və xidmətlərə, Cənab İlham Əliyevin siyasətini dəstəklədiyinə, qazilərə və şəhid ailələrinə təmannasız müalicə və xeyirxahlıq işlərinə görə Azərbaycan Silahlı Qüvvələrinin general-leytenantı Mais Barxudarov tərəfindən Fəxri Fərmanla təltif olunub.

**8.** Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılmış Vətən müharibəsi dövründə vətən qarşısında vətəndaşlıq borcunu layiqincə yerinə yetirdiyinə və misilsiz əməyinə görə Naxçıvan

Əlahiddə Ümumqoşun Ordu komandanının general-leytenantı Fazil Ağalarov tərəfindən Fəxri Fərmanla və eləcə də bir çox hərbi hissələr tərəfindən çoxlu sayda mükafatlarla təltif olunmuşdur.

**9.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlətçilik siyasətini uğurla həyata keçirdiyinə görə Parlamentinsesi.az xəbər portalı tərəfindən "Şərəfli ömür" fəxri media mükafatına, Dünya Azərbaycanlıları Diaspor Təşkilatının "Buta" mükafatına və Azərbaycan

**Sahibkar Qadınlar İctimai Birliyi tərəfindən "Xurşidbanu Natavan" mükafatına layiq görülüb. "Qazilər, Vətən Müharibəsi**

**iştirakçılarına və ailələrinə Sosial Dəstək" İctimai Birliyinin,**

**Azərbaycan Respublikası "Şəhid Ailələrinə Yardım və**

**Hüquqlarının müdafiəsi" İctimai Birliyinin fəxri üzvü seçilib.**

**10.** **2021- ci ldə Azərbaycanda "Sənə məktub yazacam..." adlı ilk kitabı, 2023-cü ildə Türkiyənin Ankara şəhərində "Ay**

**Laçın, can Laçın" adlı ikinci kitabı işıq üzü görüb.**

**11.** **2023-cü ilin oktyabrında Türkiyənin Elazığ şəhərində**

**keçirilən beynəlxalq "Xəzər şeir axşamları" şeir festivalında Azərbaycanı yüksək səviyyədə təmsil etmiş, Türk Ədəbiyyatı Vəqfinin "Türk ədəbiyyatına Hizmət" beratına layiq görülmüşdür.**

**12. 2023-cü ilin oktyabrında İraq Respublikası Mədəniyyət Nazirinin "Hizmət ödülü"nə və Kərkük Kültür Dərnəyinin**

**"Türk şeirinə hizmət" ödülünə layiq görülmüşdür.**

**Yaşa səni, Xuramanım!**

***Şəhid ailələrini, qaziləri təmənnasız müalicə edən «Milan»***

***Hospitalına, onun rəhbəri Xuraman xanım Muradovaya*** Döyüşlərdə səngər-səngər həlak olan, o pak olan şəhidlərim!

Torpaq deyib, torpaq olan şəhidlərim!
Sizdən bizə əmanətdi sizdən deyən qazilərim!
Hərəsi bir şeirim-sözüm şah əsərim.
Tariximə yeni tarix yazanlarım!
Qarabağ partizanlarım!
Dəmir yumruq bayrağıdır bu millətin.
Harda qalxdı orda gördük üzünü haqq-ədalətin.
O, Ali Baş Komandanın öz adıydı, öz imzası.
O səngərdən başlayırdı Azərbaycan epoxası!
Siz ey şəhid anaları, bacılarım!
Gedənlərin töhfəsidir ağrılarım, acılarım.
Yaşa səni Vətən qızı, Xuramanım!
O qızların seçilib-sayılan qızı!
Ana çağır, sən ana de, oğul şəhid analara.
İndi oğul əvəzisən, sən onlara.
Sən ana de, analara!

**Nəriman Həsənzadə**
*Azərbaycan Xalq Şairi*

**Xuraman xanımın geniş qəlbi...**

Xuraman Muradovanın fəaliyyəti çoxşaxəlidir. O, xeyriyyə işlərində geniş iştirak edir, əla təşkilatçıdır və öz əlləri, enerjisi və istedadı ilə yaratdığı məşhur Milan Hospital klinikasının rəhbəridir. Xuraman xanım öz klinikasında təmənnasız olaraq Vətənimizi, doğma Azərbaycanımızı müdafiə edən, döyüşlərdə yaralanan əsgərlərimizin, qazilərimizin sağlamlığının qayğısına qalır. Xuraman Muradova doğma xalqına, doğma yurduna, sözün tam mənasında Azərbaycana xidmət edir. Xuraman xanımın incə şair ruhu olduğunu bilirdim, şeirlərini oxuduqdan sonra isə onun əsl peşəkar şair olduğunu anladım. Bu, mənim üçün sevindirici bir kəşf oldu və müəllifdən əsərlərini mənə göndərməsini xahiş etdim. Xuraman xanımın nə qədər böyük və incə qəlbə sahib olduğuna bir daha əmin oldum. Onun şeirlərinin əsas mövzusu vətənpərvərlik, Vətənə xidmət, gənc nəslin vətənpərvərlik ruhunda,

Vətənə məhəbbət ruhunda tərbiyə olunmasıdır. Xuraman xanımın "Nəbi və Həcər dastanı" poeması onun yaradıcılığının zirvəsidir , desəm səhv etmərəm. Düşməndən azad edilmiş Şuşamıza, onun yaradıcılığında böyük rol ayrılıb. Belə ki, mədəniyyətimizin ürəyi, Azərbaycan mədəniyyətinin mərkəzi olan Şuşaya məhəbbətindən sevə-sevə yazır. Xuraman xanımın misralarında çox incəliklər var. Bu misralar uzun müddət yaddaşlarda qalır, insan onları təkrar-təkrar oxumaq istəyir. Çünki bu misralarda hər bir söz ürəklə, damarlarda axan qanla yazılıb.

Müəllifin şeirlərində əsasən insana, Yaradana, təbiətə, həyata sevgi və məhəbbət mövzusu üstünlük təşkil edir. Əminəm ki, Xuraman xanım həyatı çox sevir, bunu onun hər bir əsərində görmək olur və o, hər sözü, hər əməli ilə ətrafındakılara, köməyə ehtiyacı olan hər kəsə xeyir verməyə çalışır. Çünki onun böyük ürəyi var və hamıya yaxşılıq etməyə çalışır. Şairə və gözəl insan Xuraman Muradovaya Vətənimiz naminə, Azərbaycan naminə şərəfli fəaliyyətində uğurlar arzulayır, ona poeziya aləmində uzun və uğurlu yol arzulayıram. **Natiq Rəsulzadə**

**Azərbaycan Xalq Yazıçısı**

**Xuraman xanımı tanımaq mənim üçün xüsusi bir hadisə oldu...**

Mən fəxr edirəm ki, Azərbaycanımızın Xuraman xanım Muradova kimi qeyrətli xanımları var. Mən Xuraman xanımın ədəbi yaradıcılığı ilə yanaşı onun fəaliyyətini də çox yüksək qiymətləndirirəm. Neçə-neçə qazilərə, şəhid ailələrinə Xuraman xanımın göstərdiyi misilsiz köməkliklər həm Azərbaycan Yazıçılar Birliyində, həm bizim yaradıcı adamların birləşdirdiyi PEN Klubda müzakirə olunduqca hər birimiz tərəfindən çox rəğbətlə, alqışla qarşılanıb.

Azərbaycan Yazıçılar Birliyindən ildə bir dəfə bir qələm adamına

Humay Mükafatı verilir. Bu il Humay Milli Mükafatına Xuraman xanım layiq görüldü. Mən çox fəxr elədim ki, "Humay Milli Mükafatı"nı Xuraman xanıma şəxsən özüm təqdim etdim.

İstedadlı adamlar bizim ədəbi mühitimizdə çoxdur. Amma istedadlı olmaqla bərabər həm də əsl insani keyfiyyətlərə sahib olmağı bacarmaq hər adama nəsib olmur. Xuraman xanım ən yüksək keyfiyyətləri özündə birləşdirir. Mənim üçün Xuraman xanımı tanımaq sözün həqiqi mənasında bir hadisə oldu. Çünki şərt təkcə imkanın olmağı deyil, biz çox imkanları olan amma kimsəyə əl tutmayan adamları da tanıyırıq. Amma Xuraman xanıma həqiqətən hər şey halal olsun, o bütün imkanları daxilində insanlara köməkliklər edir. Bu qədər xeyir əməllər sahibi olmağı onun istedadına güc qatır, əzəmət qatır.

**Çingiz Abdullayev**

**Xalq yazıçısı**

**Sahibkar, xeyir əməllərin sahibi, gözəl ürək sahibi, şair bacım Xuraman xanımın "Sənə məktub yazacam" şeirinin və mahnısının təsiri altında qələmə alınmışdır...**

Sənə məktub yazacam –
Qəlbimdə coşub-daşan,
İnsanlığa yaraşan,
Möhkəm təməldən, Xeyirxah əməldən – Yazacam.

Eldən – obadan
Dənizdən, havadan,
Yerdən, göydən,
Bir sözlə, çox şeydən – Yazacam.

Bütün yazılarımı,
Ürək arzularımı,
Sözümün düzünü,
İstiotunu, duzunu,
Sənə rəğmən duyğularımı,
Hörmətimi, sayğılarımı – Tələbatdan, gərəkdən,
Sevə-sevə, ürəkdən – Yazacam.

Sənə məktub yazacam –
Yazacam ki, həyat təsadüflə doludur,
Bəzən bu təsadüf xoş məramın bir qoludur, Belə təsadüflər çoxunun qismət yoludur.
Bu yol kiminin qismətinə xoşbəxtlik,
Kiminə ağrı-acı, kiminə taxt-tacı gətirir. Mənim də qismətimə Sənin kimi
Allah adamı, inanclı bir bacı yetirir.

Sənə məktub yazacam – Yazacam ki, göydən enən mələksən,
Minlərlə insana dirəksən,
Ümidsən, gərəksən, Vücudun boyda ürəksən,
Yazacam, bunu da yazacam...

Sənə məktub yazacam –
Yazacam ki, bir az ağrım-acım var, Diqqətə, qayğıya ehtiyacım var.
Yaxşı bilirəm ki, harda əlacım var,
Axı məni bir baxışdan anan,
Halıma ürəkdən yanan,
Loğmanım, təbibim – doğma bacım var.

Sənə məktub yazacam – Yazacam ki, qamətin “Qız qalası”
Yerişin, duruşun bəy balası,
Hər kəlmən bal kimi – ana laylası...
Bu dünyada məndən, səndən nə qalası –
Bir qazanılan əməl, ad,
Bir də əziz bacım, Tanrıdan imdad...

Yazdığım bu məktubu
“Boz At”ın belində,
“Aynalı” əlimdə,
Durna telində,
“Laçın” mahalında,
“Laçın” elində
Rəhmətlik Məhəbbətin
“Laçınım” mahnısı dilimdə
Məmnun, xatircəm
Özüm sənə gətirəcəm...

Bu məktubun sonunu

Zirvəsi qarlı dağların qaşında,
Qayasında, daşında,
Ömrümün bu ahıl yaşında Buğum-buğum qaynayan,
Soyuq bulaqların başında,
Haylı-haraylı "Həkəri"nin şırıltısı,
"Sənə məktub yazacam" mahnısının
Sədası, ruhu, sızıltısı
Altında bitirəcəm – Böyük coşğu və sevgiylə
Əziz bacıma yetirəcəm...

**Allahverən İsmayılov**
**01 yanvar 2024-cü il**

**Məktub**

***Xuraman xanım Muradovanın "Sənə məktub yazacam" şeirinə nəzirə…***

Demişdin: "Bir məktub yazacam sənə,
Poçtdan xəbər yoxdur, çapar görünmür.
(gileyim dəyməsin zərif qəlbinə)
Hələ səsin çatıb qapımı döymür.

Olsun ki, yazmağa qalxmadı əlin, Ya da üstələdi sevgini qürur?
Tanış poçtalyonun yerinə, gülüm,

Qapıda zökəmli son bahar durur…

Həyatda nə varsa, saralıb-solur,
Yazmasan, özünü qınama nahaq,
Payız küləkləri xatalı olur;
Yetər ki, yazadək salamat qalaq…
**Vahid Əziz**
**Xalq şairi**

**Dr. Şəmsəddin Kuzəçi**

**Azərbaycanın qüruru Xuraman xanım Muradova**

Can Azerbaycan'a 22. Ziyaretimi yaparken asıl toplantımız II Türk Dünyası Edebiyat ve Kitap Festivaline katılmak idi. Burada 7 gün boyunca şair, yazar, sanatçı, yayınevi sahibi, iş insanı ve çok sayıda edebiyat ve kitap sever ile tanıştık ve kaynaştık. Onlardan biri de Şair ve iş insanı Huraman Muradova idi. Huraman Muradova edebi

çalışmalarına şiirle başlamış, yazmış olduğu şiirlerinin bazıları farklı sanatçılar tarafından bestelenmiş, seslendirilmiştir. Azerbaycan halkı onu mimar, iş insan, şair, hayırsever ve aynı zamanda hümanist bir Azerbaycan kadını olarak tanımakta ve sevmektedir.

Azerbaycan'ın gururu iş insanı ve şair Huraman Muradova yazmış olduğu ***"Sana Mektup Yazacağım"*** adlı eseri şairin ilk eseridir.

Bakü, 2022 yılında yayınlanan Huraman Muradova'nın "Sana Mektup Yazacağım" adlı eseri hakkında çok sayıda şair ve yazar değerlendirme yazıları yazarak durgu ve düşüncelerini yansıtmaya çalışmışlardır. Kimi şiirlerle kimi övgü dolu satırlarla şairin vatanperverliği, iş insanlığı, yardımseverliği ve bir Azerbaycan vatandaşı olarak toprağını, bayrağını ve halkını seven bir kocaman yüreğe sahip olduğuna vurgu yapmışlardır.

2023 yılında Kerkük Kültür Derneği ile Dünya İletişimciler Derneği'nin

Türk Şiirine “Hizmet Ödülü” ne layık görülmüştür. Son olarak 31 Ekim 2023 tarihinde Azerbaycan Yazarlar Birliğinde düzenlenen bir törenle kendisine Irak Kültür Bakanının “Hizmet ödülü” takdim edilmiştir.

Huraman Muradova Hanımefendi ile 24. Hazar Şiir Akşamlarında 4 gün birlikte şiir okuduk, gezdik ve edebiyat sohbetlerinin yanında Azerbaycan, Türkiye ve Kerkükeli konularında ortak fikirler ve projeleri ele alırken, elinizdeki toplu şiirlerini kapsayan bu kitabının Türkiye’de bir yayınevi tarafından çıkarılması kendisine ivme kazandıracağına inandığımız için kendisine destekte bulunduk, gelecekte Türk dünyasında yıldızı parlayacağının kanısındayız. Kendisine Allah’tan başarılar diliyoruz.

Yazımın sonunda Huraman Muradova Bacımın yazmış olduğu “Sana

Mektup Yazacağım” başlıklı şiirine nazire olarak aşağıdaki şiirimi ithaf ediyorum.

**Sana Mektup Yazacağım**

**(Nazire)**

Sana bu mektubu
Ne Bakü’den ne de Ankara’dan
Sana, bu mektubu
Yıkılmış Fuzuli Camisi’nden
Baba evinden,
Kerkük Kalesinden, yazıyorum.
Sana Mektup yazacağım,
Anlatacağım;

Kerkük'ün öz dilimde yazılan
Horyatlarını, Bayatlı'larını, Mani'lerini

"Altı Yıl Dicle-Fırat Sahillerinde"
Yazılan gelenek ve göreneklerini
Sana bir kez daha hatırlatacağım,
Orta Asya'dan, Azerbaycan'dan
İraq'a geldiğimizi…

Sana mektup yazacağım,
Bağdat'ın o sıcak rüzgârından
Nesimî'nin "Nesim" köyünden,
Kerbela'nın kutsiyetinden,
Necef'in muhteşemliğinden
Anlatacağım;
Hz. Ali ile Fuzuli'nin komşuluğunu
Sevginin ruhunu,
İlahi aşkla şiirin nasıl yazıldığını
Anlatacağım sana
Ehli- Beytin varlığını
Dünyanın darlığını…

Sana mektup yazacağım
Anlatacağım sana
Sizlerden uzakta
Türkmenlerin nasıl çile çektiğini
Karabağ'a, Nizami'ye, Hatayı 'ya
Şiir ve horyat yazdıklarını,

O temiz sevgilerini, mehabetlerini…
Sana mektup yazacağım,
Ama yetmeyecektir ne kağıtlar ne kalemler
Sana olan aşkımı, sevgimi anlatmaya…
"İster at
Doğru yolu ister at
Kalbimi sana verdim
İster sakla, ister at"

**İncə və duyğulu şeirlər müəllifi**

Şeir duyğuların, geniş ürəklərin, böyük təxəyyülün, dərin məhəbbətin məhsuludur. Şeiri yalnız Ulu Tanrı tərəfindən seçilmiş insanlar yazır. O insanlar da Böyük Tanrının Yer kürəsində Tanrının elçiləri sayılır.

Onların ürəyi geniş, səxavətli olurlar.

Xuraman xanımın yazdığı şeirlər çox kamildir. İnanıram ki, o, gələcəkdə çox maraqlı şairə olacaq. Azərbaycan ədəbiyyatı tarixində özünün bənzərsiz, dərin şeirləri ilə yaşayacaq. Ona gələcək yaradıcılığında böyük uğurlar arzu edirəm.

Xuraman Muradovanın şeirləri 2021-ci ildə respublika mətbuatında çap olunanda, böyük oxucu marağına səbəb oldu. Çünki bu şeirlərdəki

orijinallıq onun hər şeirində maraqlı, obrazlı ifadələr tapması, sözaltı mənaların dərinliyi, şeirlərin lokanikliyi, Xuraman xanımı az bir vaxtda oxuculara çox sevdirdi.

Onun saytlarda çap olunan şeirlərini yüz mindən çox insan oxuduğundan və çoxunun da maraqlı fikirlər yazmasından bunu aydın görmək olur. Xuraman xanımın "Yaşamaq istərsən" şeirindəki bu axıcı, lakonik cümlələr yaşamağın necə gözəl olduğuna çox tutarlı bir sübutdur.

*Bəzən lal olarsan, bəzən susarsan,*
*Bəzən ümman kimi dolub daşarsan.*
*Ürəyin darıxar, ruhun sıxılar,*
*Bəzən dəniz kimi elə coşarsan.*
*Yaşamaq istərsən dəlicəsinə…*

Azadlıq adlı səsi, şirin ana nəfəsi Vətən olan Xuraman İsmayıl qızı Muradovaya daha böyük yaradıcılıq uğurları arzu edirəm.

**Ağalar İDRİSOĞLU,**
**yazıçı-rejissor,**
**Əməkdar incəsənət xadimi**

## HAQQIN, XEYİRXAHLIĞIN SÖZ SAHİBİ

Xuraman xanım Muradovanın yaradıcılığı gördüyü xeyirxah işləri ilə bərabər boy atıb. Onun poetik nəfəsi, poetik duruşu, poetik ruhu bunları deməyə əsas verir. A.Bennet yazır ki, "Şeirdən və şairdən umduğumuz əsas şey hisslərimizin poetik ifadəsidir."

Bəli, əslində poeziya simvolik həndəsənin bir növüdür, lakin əgər simvolların arxasında ehtiras dayanmırsa, poeziya yoxdur, çılpaq söz oyunu var. Xuraman Muradovanın poetik dünyası tamam fərqlidir. Onunla hər görüşəndə mənimlə şeir dilində danışır. Qəlbi, ürəyi sözlə, şeirlə doludur. Sanki bir bulaqdır, aşıb daşır.

Xuraman xanımın ürəyi vətənlə döyünür, onunla nəfəs alır. Onun misralarında vətən sevgisi şahə qalxır. Hər bir sözün arxasında böyük bir tarix durur. Şair bu tarixi sözlə yaradaraq yaşadır.

Xuraman xanım qanlı tariximizi, haqsızlığa qarşı üsyankarlığını şeirşeir yaşayır. Onun türkçülüyümüzə, özümüzə qayıdışımızı "AzərbaycanTürkiyə" şeirində gözəl təsvir edir:

*Baş əyməz türk övladı,*
*Düşməninə, yadına. Sadiq olub hər zaman,*
*Özünün türk adına.*
*Layiqdir ərənliyə, Layiqdir hər sevgiyə, Azərbaycan-Türkiyə!*

Bəli, türkün əyilməzliyi, türkün haqq uğrunda savaşı, dönməzliyi şair hisslərində özünə yer tapır. Türkün əsl sevgiyə layiq olduğunu deməklə, bəsdirin daha türkün üzərinə getdiyiniz fikrinə aparır. Türk sülhün, əmin-

amanlığın, haqqın-həqiqətin yanında olub həmişə. Ərənlyi, mərdliyi ilə nümunə olub. Məhz son 44 günlük müharibədə türk qardaşlarımızın yanımızda olması, zəfər çalmağımızın əsəs səbəbkarı deyilmi? Bu isə özümüzə, soyumuza, kökümüzə qayıdışımızın əyani sübutdur. Tarixi torpaqlarımızın geri qaytarılması, Qarabağ uğrunda haqq savaşına çıxan milyonlarla igid oğullarımızın qəhrəmanlığı böyük bir zəfərə yol açdı. Bu zəfər həm də bizim gələcəyə Turançılığımıza getdiyimiz birgə yoludur. Gəlin, səmasında qanad gərək biz,

Sarsın qollarımız Turan elini.

Birləşək biz eyni bayraq altında,

Bayrağımız olsun, TURAN gəlini!

Bəli, Türk ellərimizin birliyi Turanımıza səsləyir bizi. Neçə illərin

Turan həsrətinə son qoymaq üzrəyik. Bu haqq səsimiz çox uzaq deyil.

Bütün türk xalqlarının bir yumruq kimi birləşməsi və TURAN adlı bir dövlətin yaranması hər birimizin arzu və istəyinə doğan Günəşdir. Xuraman xanımın şeirlərinin özəyi məhz bu Türk birliyi düşüncəsindən qaynaqlanır. **Nəcibə İlkin**

**Şair-publisist, yazıçı,** Prezident mükafatçısı

**Türk qanlı, İslam imanlı, Turan sevdalı,**

**şərəfli Azərbaycan qadını…**

İnsanların həyatına, ömür yoluna nəzər salanda bəzən adama elə gəlir ki, sanki hamı eyni bir ömrü yaşayır. Sanki adamlar bir-birinin yaşamını təkrarlayır. Amma elə insanlar var ki, onların ömrü bənzərsiz bir təcrübə, əvəzsiz bir nümunə olur - insanlıq, fədakarlıq, zəhmətsevərlik, saflıq, səmimilik, şərəf və ləyaqət nümunəsi... Xuraman xanım İsmayıl qızı Muradova məhz o insanlardandır...Təkcə Azərbaycanımızın çiçəklənməsi yolunda deyil, bütün Türk dünyası miqyasında gördüyü bir-birindən gözəl işlərlə, atdığı bütün addımlarıyla ümummilli liderimiz, ulu öndər Heydər Əliyevin başladığı yola sədaqətini və mənəvi varisliyini zəhmətiylə ərsəyə gətirdiyi işlərlə sərgiləyən, ilk gənclik illərindən başlayaraq cəmiyyətimizin ictimai həyatında əlindən gələni böyük ürəklə, milli təəssübkeşlik hissi və yüksək zəhmətsevərliklə həyata keçirməsi, 44 günlük Vətən savaşı ərəfəsində arxa cəbhədə maddi-mənəvi yardımlarıyla şərəfli bir missiyanın öhdəsindən layiqincə gəlməsi Xuraman xanımın fədakar xarakterindən, mərdanəliyindən, yorulmaz əməyindən, zəhmətkeşliyindən, ləyaqətli vətəndaşlığından və ən əsası yüksək İnsanlığından xəbər verir.

Bu gün alnının təri, istirahətsiz ömrünün bəhrəsi və xəmiri halallıqdan yoğrulmuş əllərinin yorulmaz əməyiylə addım-addım ucalan Xuraman xanımın şərəfli ömrünün müdriklik zirvəsindən yaşadıqlarını kitab kimi vərəqlədikcə bu şərəfli ömür yolunun biz gənclər üçün və

bütövlükdə cəmiyyətimiz üçün nə qədər dəyərli nümunə olduğunun şahidi oluruq – vicdan, ləyaqət, dürüstlük, sadəlik, səmimilik, təvazökarlıq, ailəcanlılıq, gözəl əxlaq, böyüyə hörmət, uşağa məhəbbət, dosta sədaqət, ziyalılıq və ən əsası İNSANLIQ nümunəsi…

Mustafa Kamal Atatürkün dilimin əzbəri olan gözəl bir sözü var: "Yer üzərində gördüyümüz bütün gözəlliklər Qadınların əsəridir." Bəzən o qadınlar zəkası, zəhmətsevərliyi, biliyi, bacarığı ilə elə gözəl nəqş edirlər ki, bu dünyanı… Tanrı özü də xəlq etdiyi zər kimi insanların zərgər əməyinə heyran qalır…Bəli, böyük Atatürkün söylədiyi kimi,

Tanrı öz fitrətindən yaradıcı güc bəxş edib qadını yaradanda… Öz İşığı, zəngin dünyagörüşü, dərin biliyi, ağlı, zəkası, peşəsinə sədaqəti, insanlığı, xanımlığı, alicənablığı, kübarlığı, yüksək natiqlik qabiliyyəti, zəhmətkeş əlləri və işində son dərəcə peşəkarlığı ilə çalışdığı bütün kollektivlərdə böyük sevgi və inam qazanan, cəmiyyətimizdə yandırdığı

İşıqla bütün Türk dünyasında Azərbaycan qadını adına həmişə bir ucalıq bəxş edib Xuraman xanım Muradova…

Bu dünyada vicdanına qəlbən sadiqliyin, zəhmətkeş əllərin, gözəl əməllərin, səmimiyyətin, təmiz sözün, fədakar ürəyin və ən əsası gördüyün işlərdə şəffaflığın, dürüstlüyün qalxdığı və qaldırdığı məqamdan daha böyük Ucalıq yoxdu...Tanrı bu Ucalığı Xuraman xanım Muradovanın yaşadığı ömür kimi tərtəmiz alnına yazıb, həm də gözəl xətlə yazıb. Ucalığın mübarək, zərif

çiyinləriylə böyük mənəvi sorumluluqları üstlənən və görəvini ən üst düzeydə ən gözəl şəkildə tamama erdirən sevgili Xuraman Xanım!

Bu həyatda təkcə təmiz adını yox, əmək kitabçasının belə ləyaqətini qorumağı bacarmaq o qədər də asan iş deyil. Xuraman xanım Muradovanın şərəfli ömür yolu bizim hamımız üçün, bütövlükdə türk gəncliyi üçün dəyərli bir nümunədir.

Vicdanlı vətəndaş və ziyalı xanım olmağı bacarmaq bütün varlığıyla, ruhuyla özünü xalqı yolunda fəda edə bilməkdi,ki bunu da hamı bacarmır... Hər kəsin sevimlisi, sidq ürəklə sevdiyi və inandığı, ürəklərdə güvən qazanan İnsan olmaq statusunu da Tanrı hər adama nəsib etmir. Ürəyimizdə çox böyük ucalıqdasınız, Xuraman xanım!

Həzrəti peyğəmbərimizdən soruşurlar ki, Dini bir sözlə necə ifadə etmək olar? Deyir ki: "təsəlli" sözü ilə. Bu çətin dünyamızda, mənəviyyatın aşındığı, dəyərlərin alt – üst olduğu, insanlığın çat verdiyi bir zamanın və mühitin içində Sizin kimi vicdanlı, dürüst, zəhmətkeş, peşəsinə vurğun, dəyanətli, ailəcanlı, övladcanlı, ocağına, evinə bağlı, pak qəlbli, səmimi, gözəl əxlaqlı, böyük ürəkli, fədakar insanı tanımaq, varlığını hiss etmək, sözün həqiqi mənasında insana təsəlli olur. Şərəfini, ləyaqətini, heysiyyətini, peşə vicdanını beş paraya dəyişənlərin meydan suladığı bir dünyanın tən ortasında Sizin kimi öz təmiz dünyasını, sadəliyini, səmimiyyətini özünün, sözünün, işinin, ailəsinin və adının paklığını – Tanrı əmanəti kimi qoruyan, düşüncələri, əməlləri ilə

cəmiyyətimizə işıq salan bir İnsanın varlığını bilmək adama təsəlli olur. Düşünürsən ki, bu torpaq Xuraman xanım İsmayıl qızı Muradova ləyaqətdə ər qeyrətli qadını, belə qutsal və uca İnsanı yetirə bilibsə, demək ki, hələ sabaha və yaşamağa ümid qalır...

**Xəyalə Zərrabqızı filologiya elmləri üzrə fəlsəfə doktoru**

# VƏTƏN EŞQİ – TURAN SEVDASI...

**Azərbaycan**

Şərəfimin, qeyrətimin Neçə min illik tarixin, Qəhrəmanlıq adısan.
Mübarizlik yollarımın, Sən sönməyən odusan!
Boy atıbdı hər daşında,
Ərənliyin, müdrikliyin
Tarix adlı yaddaşında
Bir dünyadı igidliyin, Azərbaycan!

Ulusumun, türkümün
Ərşə qalxan ünüsən. Vətən-vətən böyüyən, Dünəni, bu günüsən.
Bilinməyən sədlərinin
Yollarından çox keçilib,
Parçalanmış ürəyinin Şərbətindən çox içilib.
Azərbaycan!

Sınmamısan, bacarmısan ayaq üstə dayanmağı,
İnamından güc alaraq
Xalqın üçün haqq yolunda Bacarmısan tək yanmağı.
Ədalətin, həqiqətin
Asılmısan haqq üzündən,
Azadlıq adlı nəfəsin Duyulubdu hər sözündən.
Azərbaycan!

Ey şanlı, ulu vətənim,

Bu dünya durduqca mənim
Tarixləşən, müdrikləşən, Qəhrəman, igid, ərənim.
Səni elə sevirəm ki,
Gözüm kimi, sözüm kimi,
Ürəyimdə vətən adlı
Sönməyən bir közüm kimi.
Səni elə sevirəm ki, Özüm kimi...
Özüm kimi, Azərbaycan!

**Gözün aydın, ay Vətən!**

44 günlük müharibə Sənə zəfər gətirdi.
Qol açdığın oğullar
Özün sənə yetirdi
Gözün aydın, ay Vətən!

30 illik həsrəti
Gözlərindən sildilər.
Məğlub adlı ləkəni Səndən təmizlədilər
Gözün aydın, ay Vətən!

Cəsarətin, qüdrətin
Dilə gəlmişdi bir an. Bu hünərin önündə
Sanki donmuşdu zaman.
Gözün aydın, ay Vətən!

Düşmənə  göstərmisən

O dəmir yumruğunu. Sən türk oğlu, türk kimi
Göstərdin kim olduğun.

**Vətən**

Səni sevən ürəyim
Hər an sənlə döyünür.
Sən mənim eşq məbədim,
Mənim könül dünyamsan,
Sən bu vətən dünyamda Sən mənim öz anamsan.
Vətən!

Başı bəlalar çəkən
Qanlı bir keçmişin var. Neçə yerə bölünüb
Parçalandın min dəfə
Amma, heç sarsılmadın. Haqq-ədalət yolunda.
Yazıldı zəfər adın. Vətən!

Azadlığın eşqiylə Yanan odlu ürəyin.
Mətinləşdi, bərkidi
Mübarizə yolundan
Çəkinmədin heç zaman  Tarix-tarix yaşadın, Zirvə-zirvə ucaldın.
Vətən!

Sorağısan səsimin
Ərşə qalxan ünündə.
Çiçək-çiçək dil açdın Həqiqətin önündə.

Qərinələr içində
Neçə min il tarixin,
Silinməyən yaddaşın.
Özün boyda dərd daşın, Vətən!

Dünən igid yaraqlım,
Bu gün zəfər soraqlım,
Dirilən ümidlərim,
Açılan kilidlərim
Sənin zəfər adındı!
Azadlıq adlı səsim,
Şirin ana nəfəsim
Vətən, vətən, ay vətən!!!

**Əsrin Qəhrəmanı olan Komandan!**

Yaşatdı xalqına böyük bir Zəfər,
Zülmlərə qılınc çalan Komandan!
Ürəyi dağ boyda, ruhu göy qədər,
Könüllərə məlhəm olan Komandan!

Ata vəsiyyəti hasilə yetdi,
Ulu Öndərimin ruhun şad etdi,
Dar gündə xalqına imdada yetdi,
Əsrin Qəhrəmanı olan Komandan!

Zalımı, haqsızı yerlərə sərdi,
Şaxtalı Şuşama bahar gətirdi,

Yalçın qayalarda çiçək bitirdi,
Xarı bülbülümə həyan, Komandan!

Arazdan su içdi Xudafərində,
Bizi salamladı Laçın elimdə,
Hoçaz, Qırxqız, İşıqlı, Güləbirdə,
Qalib kimi ayaq basan Komandan!

Bayrağı lütf etdi əmin əllərə,
Zəfər müjdələdi Turan Ellərə,
"Dəmir yumruq" düşüb dildən-dillərə,
Xalqımın Fatehi olan Komandan!

Xuramanam, dövlətimə əsgərəm!
Haqqın aşiqiyəm, Haqqa məşələm!
Turanın Ər Oğlu, Sən ey Möhtərəm
Xalqımıza Komandansan, Komandan!

**Zərifə xanım**

Yüz il ötüb keçdi sənli bahardan,
Dünyaya yol saldın qədim diyardan...
Tarixdə ad qoydun, dillərə dastan!
Xalqın böyük qızı Zərifə Xanım!

Sərkərdə böyütdün xalqını sevən,
Sərkərdə böyütdün ər oğlu ərən,
Sən dünya elminə töhfələr verən,

Xalqın görən gözü, Zərifə Xanım.

Könüllərdə rəhmət yeridir adın!
Ruhuna duaçı qohumun- yadın,
Gözlərə nur olan, şəfalı qadın!
Könüllərin sözü Zərifə Xanım!

Qadınlıq adının ləyaqət rəmzi,
İncidən toxunub kəlməsi, sözü,
Şərəfli ömrüylə qoyduğu izi
Yaşadacaq özü Zərifə Xanım...

**Ay Laçın, can Laçın!**

Aramızda otuz ilin nisgili,
Aramızda illər qaldı, ay Laçın. Bu namərdlər, bu xainlər, xəbislər,
Bizi səndən ayrı saldı, ay Laçın.
Can Laçın…

Bir dünyalıq həsrət oldun gözümdə,
Bitdin dodağımda, bitdin sözümdə,
Zülmətə çevrildi hər gündüzüm də,
Həsrət saçlarımı yoldu, ay Laçın.
Can Laçın…

Şəhid haraylndan göyərən daşın,

Dərddən nalə çəkib ağaran başın,
Hər daşında, hər qayanda göz yaşın, Ürəyimdə qara xaldı, ay Laçın.
Can Laçın...

Baba yurdum səndə qalıb, qocalıb, Sanki dünya ömürümdən öc alıb,
Daha qəm-kədərim arxada qalıb, Gözlərim sevincdən boldu, ay Laçın.
Can Laçın...

Qurbanlar kəsdim ki, arzuma yetəm,
Çiçək olub Laçın qayanda bitəm,
Gül qoxulu yamaclarında ötəm, Xoş bu günün, xoş bu halın, ay Laçın.
Can Laçın...

Duydun azadlığın xoş nəfəsini,
Eşitdin zəfərin şən nəğməsini,
Xuraman səsinə qatıb səsini, Sevincindən qanad çaldı, ay Laçın.
Can Laçın...

**Səcdənə gəlmişəm, Şuşam!**

Həsrətdən üşüyən arzularımı,
Götürüb səcdənə gəlmişəm, Şuşam.

Neçə baharımı, neçə yazımı,
Sənsiz həyatımdan silmişəm, Şuşam.

Mərmi gülüşlərin göz dağım olub,
Hər damla göz yaşın bulağım olub,
Sənsiz kaş bilsəydin nə çağım olub,
Dərdinlə can verib ölmüşəm, Şuşam.

Anam tək sinəmə bağladım səni,
Hər gecə, hər gündüz qoxladım səni,
Otuz il ürəkdən ağladım səni,
Otuz il ürəksiz gülmüşəm, Şuşam.

Qarlı dağlarına çökən duman-çən,
Mənim ürəyimə çökmüşdü nədən,
Ruhumu özüylə aparıb gedən,
Dünyanı öz dünyam bilmişəm, Şuşam.

Olub keçənləri unudaq daha,
Bağışla, deyəsən batdım günaha,
Bilsəydin açılan bu xoş sabaha,
Nə qədər qurbanlar kəsmişəm, Şuşam.

Xoşdur azadlığın, xoşdur bu sədan, Səni gözlərimdə yaşatdım hər an,
Səcdənə durubdur qızın Xuraman,
Səni candan artıq sevmişəm, Şuşam.

**Azərbaycan-Türkiyə**

Əzəldən bir doğulub Birgə boy atmısınız,
Adı, ruhu, qanı, bir,
Kökü, soyu, canı bir,
Siz doğma qardaşsınız
İşıqlı  gələcəyə
Azərbaycan-Türkiyə!

Tarix boyu bir olub
Yolunuz, məqsədiniz.
Dünyaya car çəkibdi
Türk adlı haqq səsiniz,
Sizin bu varlığınız Bölünməzdir ikiyə
Azərbaycan-Türkiyə!

Baş əyməz türk övladı
Düşməninə, yadına. Sadiq olub hər zaman
Özünün türk adına.
Layiqdir ərənliyə,
Layiqdir hər sevgiyə,
Azərbaycan-Türkiyə!

Daşınızda doğmalıq, Sözünüzdə qürur var.
Yenilməz vüqarınız
Düşmənin bağrın yarar.
Siz ey doğma şahinlər,

Turana gedən yolun
Göyərən ümidləri
Sülhün göyərçinləri! Nə mutlu Türküm deyə Azərbaycan-Türkiyə!

**Turan elləri**

Gözün aydın olsun, ey ulu yurdum, Yayıldı dünyaya Türkün gür səsi!
Nuruna qərq oldu könüllərimiz,
Cahana od saldı Turan nəfəsi…

İgid oğullarım, çıxıb tufandan,
Qaldırdı göylərə"kurt başlı" tuğu!
Zəfər tarixini yazan əllərim,
Göstərdi âləmə"Dəmir Yumruğu!"

Yenilmez Türk ruhu, Türk'ün geyrəti, Tarixin bağrından qopup gəldik biz!
Bu torpaq uğruna, vətən uğruna,
Qan axıdıb can verərək öldük biz!

Yüksəldərək yurdun hür bayrağını, Duyduq azadlığın şirin dadını.
Çıxdıq savaşlardan alnımız açıq,
Yaydıq bu dünyaya Türkün adını.

Birlikdə yürürlər Kızıləlma'ya,

Qardaş  Türkiyə'ylə, can Azərbaycan. Kazak, Türkmən, Özbək, Kırgız da gəlir, Qurulacaq mütləq, o büyük Turan!

Sönməyən çırağam , yanan ocağam,
Əslım Oğuz Türk'ü, hədəfim Turan.
Günəş kimi doğub yurdum üstünə,
Saçarım nurumu, rəhbərim Qur'an.

Əsirlərlə ayrı düşsək də bizlər.
Tariximiz eynı, dilimiz birdir.
Bir ağacın qollarıyıq  biz Türkler, Qönçəmiz də birdir, gülümüz birdir.

Gəlin, səmasında qanad gərək biz,
Sarsın qollarımız Turan elini.
Birləşək biz  eyni bayraq altında,
Bayrağımız olsun, TURAN gəlini!

**Zəfər nəğməsi**
***Qəhrəman Azərbaycan Ordusuna***

Tarixi yenidən yazdı, Qalibiyyət xəbəriniz!
Yayıldı Turan elinə,
Sizin, şanlı zəfəriniz!

Düşmənın namərd bağrına Haqq  gülləsini  vurdunuz.

Yazdığınız bu tarixlə, Yeni bir Vətən qurdunuz!

Birləşib "Dəmir Yumruq"la,
Eynı yolda, eynı izdə…
Yolunuz Haqq yolu oldu,
Haqq dil açdı qəlbinizdə.

Qəhrəman, igid oğullar,
Yoluna can qoydu, Vətən!
Torpağına göz tikənin,
Gözlərini oydu, Vətən!

Yolumuz Turana doğru,
Birləşək biz gərək, Vətən!
Şuşaya çəkildi bayraq,
Zəfərin mübarək, Vətən!

Üç rəngli hür bayrağımız, Dalgalanır Qarabağda.
Xankəndində, Xocalıda,
Ağdərədə, Murovdağda.

Yaşasın! Baş Komutanım!
Yaşasın! Qalib ordumuz!
Düşməndan azad edildi,
Bizim o cənnət yurdumuz!

Əbədiyən Qarabağda,
Cəsur nəğməmiz inləsin!

İndi zəfər marşımızı
Dost da, düşmən da dinləsin!

**Şəhidlər xiyabanı**

Şəhidlər xiyabanı...
Hər yer sükut içində... Sanki burda məzarlar
hamısı bir ölçüdə, hamısı bir biçimdə.
Uzaqdan bir səs gəlir...
Bir ana layla deyir
Ürək yandıran ahla.
Salamlayır gecəni
Açılmayan sabahla...
Gah coşğun, gah da həzin,
gah da harayla deyir. Bir ana xiyabanda oğluna layla deyir…
Oğlunun baş daşını
öpərək qucaqlayır. Ana elə göynəyir,
ana elə ağlayır....
Deyir hardasan oğul,
niyə geri dönmədin?
Sənsiz sönüb ocağım,
Boş qalıbdı qucağım.
Məzarına gəlmişəm
deyiləsi sözüm çox,

Bura son ümid yerim, Gediləsi yerim yox... Ana boynunu büküb

için-için sızlayır.

Oğlunun baş daşını

həsrətlə qucaqlayır. Birdən ah çəkib susur,

Şəhid oğul önündə

sanki səcdəyə durur...

Ahı göyü yandırır,

ahı yeri yandırır...

Oğulun səsi gəlir…

Ana bir an dincəlir, ilmə-ilmə sökülür, ilmə-ilmə incəlir...

Ağlama, can ay ana, Şəhid anasısan sən!

Bu torpağın, bu yurdun

enməz Qalasısan sən! Oğlun şəhiddir ana,

şəhidlər ölməz axı!

Onların cənnətidir yaradanın dərgahı.

Bir başını qaldır sən, vətən göylərinə bax. Şəhidin gülümsəyir,

ordan sənə baxaraq

Sevinclə o göylərdən

səni müjdələyəcək Son nəfəsində səni

cənnətə götürəcək...

Şəhidlər xiyabanı... hər yer sükut içində. Sanki burda məzarlar

hamısı bir ölçüdə, hamısı bir biçimdə…

Uzaqdan bir səs gəlir, Bir ana layla deyir, gah coşğun, gah da həzin Gah da harayla deyir.

**Xocalı harayım**

O gecə Xocalı qana boyandı,
O gecə vətənin ürəyi yandı,
O gecə haqq da özü haqqını dandı,
İçimi qanla yedim,
Laylay Xocalım dedim,
Laylay Xocalım laylay...
Qanlı Xocalım laylay...

Körpə süngülərin körpə harayı,
Oxladı sinəmi neçə min sayı,
Can verdi bir anda illərim, ayım, Mən də bir qurban idim
Laylay Xocalım dedim,
Laylay Xocalım laylay...
Qanlı Xocalım laylay...

Qan içdi torpağım, qana boyandı,
O gecə Xocalı alışdı, yandı,

O gecə elə bil həyat dayandı,
Bilmədim yerdəmi, ya göydə idim
Laylay Xocalım dedim,
Laylay Xocalım laylay...
Qanlı Xocalım laylay...

İnlədi  yaralı bir aslan kimi,
Zaman ömrümüzün qəddar hakimi,
Gözünü sığadı əcəl qan kimi,
Mən dərdə boyanıb,  mən kədər dindim,
Laylay Xocalım dedim,
Laylay Xocalım laylay...
Qanlı Xocalım laylay...

Laylay Xocalım laylay,
Başı bəlalım laylay,
Dünyan qana boyandı,
Qaldı nə halım, laylay...
Qanlı Xocalım laylay..

**Vətən adlı şəhidlər**

"Şəhidlər ölməzdilər
Şəhidi ağlamazlar".
Bu sözün arxasında

Milyon qəhrəmanımın
Tükənməyən taqəti,
Bitməz cəsarəti var.
Şəhidin ölməzliyi,
İgidin dönməzliyi,
Mərmi-mərmi ucalan
Oğul mübarizliyi
Bir də vətən sevgisi
Onun sönməzliyi var.
Vətən ağrılarından,
Vətən sancılarından
Doğulan oğulların,
Şəhidlik zirvəsində
Qeyrəti var, adı var..
O ad ki, əbədidir,
O ad ki, müqəddəsdir.
O ad Vətənlə birgə
Çəkilən qoşa səsdir.
Vətən adlı oğullar,
Vətən adlı şəhidlər,
Vətən adlı zirvənin  Yenilən  nəfəsidir.

**Ayasofiyam**

Allah'u Akber deyirem,
Ruk edib secde edirem,

Rüyamda sana gedirem,
Müsade et senle kalam,
Ayasofyam, Ayasofyam…

Peyğemberimin nur yüzü, Fatih Sultan Mehmet özü,
Sen gönlümün gören gözü,
Gel edelim bir kaç kelam
Ayasofyam, Ayasofyam…

Mübarek ezanın hani,
Hasretin kül etti beni,
Hardan baksam görem seni,
Ta Bakü'den selam salam Ayasofyam, Ayasofyam.

Toprağında secde izi,
Tariximin ulus izi,
Nefesinde rahmet sözü,
Efsunlu selanla dolam, Ayasofyam, Ayasofyam.

Ses gelir mavi göklerden,
Saf-saf duran meleklerden,
Elenirim eleklerden,
Öp alnımdan qadan alam, Ayasofyam, Ayasofyam.

Minareler duman-duman,
Lman ettik, Hakka iman,
Sana kurban şu Xuraman,
Can Azerbaycan'dan selam

Ayasofyam Ayasofyam…

**Türkiyem**

***Türkiye'de 6 Şubat 2023'te meydana gelen depremde ölen canlara ithaf…***

Şerha şerha oldu toprağın bağrı, Gökler gözyaşını döktü o gece.
Yüksek binaların çığlıklarından, Dünya dizi üste çöktü o gece.

Kendini günahkâr bildi rüzgârlar,
Bulutlar hıçkırdı, yere yağışı. Nice yarım kader, küstü hayata,
O gece ağlattı toprağı, taşı...

Sıkı sıkı sardı keder sevinci,
Taşlara çırpıldı arzu-dilekler.
Sıktı gözlerini, yumdu gökyüzü,
Enkazlar altında sustu yürekler.

Tahammül de sende, güç de sabır da…
Çetin günde sensin dadım, Türkiye'm

Sana “can” demişim, “canım”, demişim,
Senden özgesine yadım, Türkiye’m...

**Necə çəkim bu dərdi...**

***Qardaş Türkiyəmizdə zəlzələ ilə əlaqədar çox kövrəldim...***

Gözüm dolur baxammıram,  Türkümün qəmli gözünə.
Qəfil gələn ölümlərin,
Körpə-köpə gül üzünə.

Ürəyimin qəm səsini,
Ərşə çəkib gecəm Allah.
Bu dərd bitən dərd deyilmiş,  Mənə güc ver, çəkim Allah.

Bu yolların dönüşü var,
Bu yolların sonu yoxdu.
Açılan hər sabahların,  Geceden xəbəri yoxdu.

Ölüm yetişən gözlərdə,  Bir yaşamaq həvəsi var.
Acı-acı ölümlərin,
Şirin-şirin nəfəsi var.

Çəkilməyən ağrıların

Əzabında qul olmuşam.  İnildəyən könüllərdə
Yanıb sönən kül olmuşam.

**Dayan,  Deprem!**

Dur, ey sarsılan zemin!
Yeter canlar aldığın.
Sıcak ocağımızı
Bize haram kıldığın!
Ya rab beton altında,  Körpe, fidan balan var!
Arzusu yüreğinde,  Gözü yolda kalan var.
Ah... nasıl üşüyorum,
Sıcacık ocağımda.  Sanki bir zulmetteyim,
Enkazlar kucağında.
Bu masum insanlara
Merhamet eyle Allah.
Ulu Türk dünyasına,
Güneşler doğsun sabah…

**Salam sənə əziz Vətən**
**Özbəkistan, Özbəkistan!**

***(Əbədi bağımsızlıq diləklərimlə Qardaş Özbəkistana həsr edirəm...)***

Sənin ulu məhəbbətin,
Tariximin nişanəsi! Sarayların duvarında, Ucaldılır Quran səsi.
Səmərqəndim ey Daşkəndim,
Könül yurdumda başkəndim!

Əmir Teymur, fatehləri, Tarixində bir yaraşıq.
Parlar uldızların kimi
Hər yanında gür bir ışıq.
Sənin Xarezm'in, Buxara'n,
Biz Türklərə ana vətən!

Ərənlərin diyarıdır,
Evliyalar bucağıdır,
Qadim mədrəsələrin,
Həqiqətin ocağıdır…
Ey Kokandım Andincan'ım,
Vətənə qurban bu canım!

Qanla yuduq torpaqları , Birlikdə ağlayıb güldük.
Bir ananın evladıyıq,
Eynı candan cana gəldik. Namangana, Fərqanə'yə Salam olsun can vətənə!

Azerbaycan'ım da yazdı, Şanlı zafər nəğməsini. Birgə yayaq bu dünyaya, Turan elin haqq səsini...
Qaraqalpaq, Kaşkadərya'm
Mənim yurdum, mənim dünyam!

Mənim gözəl məmləkətim,
Bağrında qurulsun Turan.
Minarələrdən yüksəlsin, Göylərə mübarək azan!
Xivədən, Surxandəryadan,
Əsla ayrılmaz ki, bu can!

Sənin şanlı bayrağına
Zaval uğramasın aman!
Dualarla salamlasın,
Səni, bu qızın Xuraman!
Salam sənə əziz vətən!
Özbəkistan! Özbəkistan!

**Özbəkistanım mənim, Sən də Ana vətənim!**

Hər daşında, divarında Qədimliyin nişanəsi.
Bəzədilmiş sarayında
Var Quranımın nəfəsi. Səməqəndim, Daşkəndim, Sən də mənim Vətənim!

Əmir Teymurun hər izi, Tarixinə bir  yaraşıq.
Yanır ulduzların kimi
Hər tərəfində  gur işıq. Buxaram, Xarezmim mənim,
Sən də mənim  Vətənim!

Türkümün ərən nişanı, Hər məbədin ocağıdır.
İbadət, ibrət sarayın,
Haqq ədalət bucağıdır,
Andican, Kokandım mənim,  Sən də mənim Vətənim!

Qanla yuyan dərdimizi,
Bir ağlayıb, bir  bölmüşük.
Bir ananın övladı tək,
Bir qucaqda böyümüşük.
Namangan, Ferganam mənim,  Sən də mənim Vətənim!

Azərbaycanım yazıbdı, Şanlı zəfər tarixini. Sənlə yayacaq dünyaya
Turan adlı haqq səsini.
Qaraqalpaq, Kaşka dəryam,
Məni hər an duyan kəsim, Sən də mənim Vətənim!

Yaransın Turan elləri,
Səndə ey gözəl məkanım.
Minarələrdən ucalsın
Ərşə mübarək Azanın!
Dualarla salamlayır

Səni qızın Xuramanın
Surxandəryam, Səmərqəndim,  Sən də mənim Vətənim!
Siz də mənim Vətənim!

**Azərbaycan, Özbəkistan**

Əzəldən bir qardaş  kimi,
Yol gəlib, tarix yazmısız.
Bu dünyanın haqq səsində,
Böyük şöhrət qazanmısız.
Sizlə gözəlləşir cahan,
Azərbaycan, Özbəkistan!

Turana açılan sabah,
Haqqınızdan nur alıbdı.
Bu qardaşlıq birliyiniz
Turanlığa yol salıbdı.
Bir ürəkdə iki cahan i
Azərbaycan, Özbəkistan.

Vətən üçün söz mülküdür,
Nizamisi, Nəvaisi.
Hər birisi bir xəzinə,
Hər birinin öz "Xəmsə"si.
Xalqına olubdu dastan,

Azərbaycan, Özbəkistan!

Özbək ədəbi irsinin
Məhəmməd Babur dühası.
"Baburnamə" əsəriylə
Yaradıbdır söz dünyası.
Könüllərə olub sultan,
Azərbaycan, Özbəkistan.

Çox əsirlik tarixiniz
Türk elinə bir örnəkdir.
Amalınız, qüdrətiniz
Gələcəyə bir gerçəkdir
Sizinlə səsləşir Turan,
Azərbaycan, Özbəkistan!

Ərənliyin tarixində
Bir dünyalıq adınız var.
Bir qardaş tək Turan adlı
Sevdanız var, andınız var.
Fəxr edir sizlə Xuraman!
Azərbaycan, Özbəkistan!

**Turan sevdalıları**

Türk dünyamıza səs salan,
Sülh adıyla qanad çalan,

Xalqı, millәti bәxtiyar
İlham kimi, Şövkәt kimi
Şәrәfli oğulların var.

Dünyanın hәr bir yerinә,
Yayılıbdı türk adınız
Turan ellәrindәn gәlir,
Qardaşlaşan xoş sәdanız.

Ta qәdimdәn dost olubdu,
Azәrbaycan, Özbәkistan.
Qoruyacaq bu dostluğu,
Sizin tәk rәhbәrlәr hәr an.

Qoşalaşıb  yol gedirsiz,
Turan adlı mәmlәkәtә.
Bir bayraq altda birlәşәn
Baş әyәk Turan dövlәtә.

Turan adlı sevdamızsız
Can Türkiyәm, Azәrbaycan.
Yumruq kimi bir olmusuz
Özbәkistan, Türkmәnistan,
Qırğızıstan, Qazaxıstan.

Sizin kimi rәhbәrimlә
Açılır qanadım, qolum.
Sizdәn hәr an ilham alır

Turanıma gedən yolum.

Yolunuza nur çiləsin
Dualarım, şeirlərim.
Xuramanla bir sevinsin.
Turan sevən könüllərim.

**Qazaxıstan**

Əzəldən bir yaranıbdır,
Türkük, türkdü soyadımız.
Cəsarətin, igidliyin,
Məhvəridir türk adımız.

Ey bizim türk dünyamızın
Ata yurdu Qazaxıstan.
Gözəlliklər məskənidir,
Həm Astanan, həm Türküstan.

Çimkənd şəhəri cənnətin,
Şimkala qürur yerindir.
Bozkır, Aktau, Almatı,
Balxaş tursit beşiyindir.

"Böyük çöl" ün  böyük adı,
 Muzey adına yaraşıq.
Biz türk adlı dünyamızla,

Hər zaman doğma qardaşıq.

Xoca Əhməd məqbərəsi,
Könüllərin sultanıdır.
Qazaxıstan ərənliyin,
Şan-şöhrətli ad-sanıdır.

**Vətənin oğulları**

Müqəddəs zirvədir vətən adınız,
Üçrəngli bayraqdır vətən andınız,
Vətəni hər şeydən uca sandınız,
Vətənin mərd, cəsur ər oğulları...

Yolunuz haqq yolu, ədalət yolu,
Qəlbiniz azadlıq eşqiylə dolu,
Sən ey vətənimin  qeyrət simvolu,
Vətənin qeyrətli  mərd oğulları...

Günəş tək parlayıb gün tək doğanım,
Cəsarət rəmzisən, şöhrətim, şanım,
Sən Zəfər müjdəlim, Qələbə anım,
Düşmənin gözünə dərd oğulları…

Bu xalqın, millətin Mübariz səsi,
Babəkdən yoğrulub ruhu, nəfəsi,
Sizdən boy atıbdı vətən sevgisi,

Vətənin can verən hər  oğulları...
Qüdrətli, namuslu, mərd oğulları.

**Səmərqəndin ulduzları**

Keçmişindən bu gününə
Dağlar qurub dağ vüqarın. Əmir Teymur hikmətindən
Tarix yazıb hər diyarın.

Böyük ipək yollarına
Qol açıb Sır-Dərya vadin.
Muqocari  dağlarından
Avropaya keçib adın.

Bu möhtəşəm duruşunu
Nəhəng ulduzlar bəzəyir.
Tarixinə adın yazan
Hər igidin varam, deyir.

Hər daşında tarix izin, Boylanıb göylərə sarı.
Turana bir yol salıbdı
Səmərqəndin ulduzları.

Sanki göylərdən ələnib,

Sinəsində işıqları. Gözlərindən rəng alıbdı,
Bəzənibdi ulduzları.

Hər daşında, divarında Gözəlliyi gözlər çəkir.
Bir rəssamın fırçasında,
İlahi, gör nələr çəkir...

Gecəsinə yaraşıqdı,
Mavi gözlü minarələr.
Sübh şəfəqin gözəlliyi
Gündüzünə nur dənələr.

Ayın hilal baxışında,
Nazlanır hey küçələrin.
Sözün sehrinə dalıbdı,
Səni sevən şairlərin.

Turan adlı sevdanız var, Qəlbə fərəh, könül varı.
Xuramana bir dünyasız  Səmərqəndin ulduzları.

**Qırğızıstan, əziz vətən!**

***(Qardaş Qırğızıstana əbədi bağımsızlıq və hürriyyət dolu arzularımla)***

Əzəldən məskən salıbdı, Gözəlliklər tər sinəndə.

Sərvət dolu torpağının Barı, bərəkəti səndə. Bişkek, Kantın özəl Vətən, Qırğızıstan gözəl Vətən.

Dağlar nuru Jalal-Abad,
Dəniz qoynu, gözəl, abad,
Narın, Tokmok bax, adbaad,
Gözəllik alır hüsnündən,
Qırğızıstan, gözəl vətən.
Karakolun, Koçkar-Atan

Göz oxşayır Kara-Baltan, Gözəllikdə varmı çatan, Yoxdu sənə, yoxdu bir tən, Qırğızıstan, gözəl Vətən.

Türk dünyasında var səsin
Oş, Maylısu xoş nəfəsin,
Şəninə nəğmələr desin,

Könlümdə, qəlbimdə bitən, Qırğızıstan gözəl Vətən. Turana gedən yolun var, Qəlbində qurubdu qərar,

Kızıl-Kalan xoşbəxt diyar,
İlham alıb hər an səndən, Qırğızıstan gözəl Vətən.
Özgon, Talas, Nookat adlı,
Şəhərin var, qəlbi odlu,
Türk dünyamda türk soyadlı,
Taşkömürün, Çolpan-Atan, Qırğızıstan gözəl Vətən.
Balıkçıdan keçən olam,
Bulağından içən olam,
Sülüktüdə qonaq qalam, Olam hər dərdinə yetən,
Qırğızıstan gözəl Vətən.
Salam Qırğız ellərimə,
Salam Qırğız  dillərimə,
Türkün gözəl millətinə,

Xuramandan bir ərmağan,
Qırğızıstan, doğma Vətən.
Qırğızıstan, Ana Vətən.

**Qarabağın köksündən Yolumuz Tanrı dağa...**

Ey zirvələrdə uçan Qartalım!
Müqəddəs Vətənin səmalarında...
Dayanmadan hey qanad çalacaqsan...
Böyük Türküstanın sevdasıyla Sən
Qarabağ köksündən Tanrı dağına
Əbədi sarsılmaz Yol salacaqsan!

Ey zirvələrdə uçan Qartalım!
Qarabağın göylərində
Ərşə qalxır dualarım
Yorulmasın qanadların!
Sənin adın, Sənin Yolun
Bir mirasdır gələn yeni nəsillərə Ümid apar Türk Ellərə!

Könüllərdə fəth etdiyin ucalıqla
Qarabağdan Tanrı dağa varacaqsan! Hünər, qeyrət və yenilməz cəsarətlə
Sıxıb mavi hilalımı qanadına
Şimşək təkin
Asimanı yaracaqsan!...

Ey zirvələrdə uçan Qartalım!
Sən elə böyüksən, elə ucasan!
Böyük qüdrətinlə, Turan sevginlə
Xarıbülbül ətirli Qarabağımdan
Könüllər sultanı Tanrı dağına
Əbədi sarsılmaz Yol salacaqsan!

**Türkmən anam**

***(Kərkükdə ürəyi bizimlə döyünən Türkmən Analarımıza həsr edirəm)***

Ömür boyu neçə zülm,
Neçə zillət görən anam.
Dərdən ağaran saçını,
Ağlayaraq hörən anam.
Ey mənim Türkmən anam...
Bilməm hansı dərdə yanam.

Bilirəm ki, ürəyində
Dərin yaraların çoxdu. Oğul dərdi, vətən dərdi, Sinənə saplanan oxdu.

Ey mənim Türkmən anam...
Bilməm hansı dərdə yanam.

Dualarla, qurbanlarla,
Dünyaya oğul gətirdin.
Şəhid verdin vətən  üçün,
Neçə oğullar itirdin…
Ey mənim Türkmən anam...
Bilməm hansı dərdə yanam.

Böyütdüyün oğulları,   Vətənindən ayırdılar. Ümidlər qəlbində qaldı Zülm ilə doyurdular.
Ey mənim Türkmən anam...
Bilməm hansı dərdə yanam.

Ömrünün bahar fəslində Qönçə ikən solan anam.
Yurda oğul bağışlayıb
Ey oğulsuz qalan anam,
Ey  mənim Türkmən anam...
Bilməm hansi dərdə yanam…

**NAXÇIVANIM**

Ulu Şərqin Xan qapısı,
Şah baxışlı  Naxçıvanım!

Alpər, ərənlər bağısan,
Gül naxışlı Naxçıvanım!

Həsrətlə  çağlayan Araz,
"Ayrılığın" nişanəsi...
Ürək yaxar qardaşının,
Muğama qoşulan səsi..

Qoynundakı minarələr
Tarixindən xəbər verir.
Sən bir cənnət diyarısan,
Hər  köşən bir mucüzədir.

Əlincəylə Haçadağın,
Qədim çağların zəmisi.
Gəmiqayadadır hələ,
Həzrəti  Nuhun gəmisi…

Əshabı Kəhf mağaranda
Uyur qutsal, pak niyətin.
Tarixinə şandır sənin
Möminə Xatun qeyrətin.

Mərcan qaşlı Batabatın,
Zorbulağın ,Badamlın var
Dağın ,daşın,gül-çiçəkdir,
Sinəndə qaynar bulaqlar.

Mirzə Cəlilin yurdusan,
Hüseyn Cavidin ocağı...
Heydər ata dühasının
Müqəddəs ata qucağı!

Tarix boyunca Türklərin
Mərdlik dastanı Naxçıvan!
Sənin qürur qaynağındır,
Şah damarın, Azərbaycan...

Əbədiyən yaşa, var ol,
Ey Naxçıvan,ulu vətən!

**"Sürgün taleli..."**

Azərbaycan əsilli Özbək şairi Maqsud Şeyxzadənin xatirəsinə…

Məzarın önündə gözlədim bir an,
Baxdım həsrət dolu baxışlarına.
Vətəndən vətənə sürgün edilib
Düşmüşsən taleyin qarğışlarına...

Ulu Türkistan'ın pak sinəsini,
Zülüm qılıncıyla parçaladılar.

Millətin ziyalı oğullarını
"Türkçü" damğasıyla damğaladılar.

Mərdcə  sinə gərdin tüm əzablara,
Sönmədi içində Turan sevdası.
Yazdın misra misra vətən dərdini,
Sözü sipər edib aldın qisası.

Diyardan diyara sürgün eylədi,
"Türk" adından belə qorxan namərdlər.
Şair ürəyini qana bələyib
Səni öz içində boğdu bu dərdlər …

Səninlə birlikdə doğdu, böyüdü,
Türkçülüyə sevgin, "Turan" niyyətin.
Əymədin boynunu zalım önündə,
Bizə bayraq oldu pak əsalətin!

Qaranlığı yardın, çıxdın tufandan,
Yanan ürəklərdə köprülər saldın.
Qəmli ürəyinlə, yurd həsrətinlə
Xalqın yaddaşında əbədi qaldın.
Xalqın yaddaşında əbədi qaldın!

## HALALLIQ BEŞİYİM...

**Ay ana...**

Ay ana, sənsizlik sıxır qəlbimi,
Yenə yollarına dikilib gözüm.
Həsrətin qəlbimi elə göynədir,
Dilimdə bir anlıq dolaşır sözüm.

Yoxluğun buz kimi üşüdür məni,
Sanki baharımda qışa dönmüşəm.
Sızlayır qəlbimin sən olan yeri,
Ümidi göyərmiş daşa dönmüşəm.

Unuda bilmirəm sənli günləri,
Ana, varlığımın nişanəsisən. Gözümdə həsrətin donub qalıbdı,
Ay ana, eşqimin pərvanəsisən.

Kaş körpən olaydım ana, ay ana....
O şirin laylanı duyaydım yenə.
Yaşayıb doyunca sənli illəri,
O cənnət ətrini alaydım yenə.

Mən sənin parçanam, sən mənim özüm,
Bu dünya evimin çırağı ana.
Donmuş baxışına, ruhuna qurban.

Ömrümün mənası, varlığı ana.

Yağır ürəyimə həsrət yağışın,
Anasız qəlbimin evi islanır.
Boy atır içimdə sənli arzular,
Ümidim, xəyalım od tutub yanır.

Bizi tərk eyləyib getdiyin gündən,
Bağçamız, bağımız eh...qardı, ana.
Sənin yaşadığın fəsillər, illər,
Özüntək yazıydı, bahardı, ana.

**Anama oxşamaq istəyirəm...**

***(İllər öncə yazdığım bu şeiri məsum baxışlı, halal süfrəli, zəhmətkeş, ismətli Anama həsr etmişəm)***

Qəlbimdə gözəl bir arzu yaşayır, Anama oxşamaq istəyirəm mən. Onun varlığıdlr bu həyat yolum,
Anama oxşamaq isyirəm mən.

Axşamlar gec yatar, səhər tez durar.
Min bir zəhmətiylə yaradar, qurar,
Sübhün şəfəqində tellərin darar,
Anama oxşamaq istəyirəm mən.

Anamı ömrümün tacı saymışam,

Xeyirxah adından qürur duymuşam,
Qarşıma yeganə məqsəd qoymuşam, Anama oxşamaq istəyirəm mən.

Ana bir dünyadır, biz pəncərəsi,
Şirindir hər zaman müqəddəs səsi,
Ən əziz varlıqdır, gözəl nəfəsi,
Anama oxşamaq istəyirəm mən.

**Ata**

Çoxdan gözləyirdim yolunu ata,
Arzum, muradımsan, bilirsən bunu.
İstəmərəm saçlarına dən düşə,
Sənsiz həyatımın yoxdu bir sonu.
Mənə ürək verən, ürəyim ata.
Süfrəmdə bərəkət, çörəyim ata.

Mənim hər dəqiqəm, hər bir anımsan,
Damarda çağlayan, axan qanımsan,
Arzular məskəni olan canımsan,
Həyatımın özü, adısan ata,
Ömrümün mənası, dadısan ata.

Ürəkdən yazıram tükənmir sözüm,

Sənsiz işıq görsə kor olar gözüm,
Saçına gül-çiçək çələngi düzüm, Bənövşə ətirli mehriban ata.
Hər sözümə "hay can" deyən can ata,

Səni candan sevən bir övlad kimi,
Sənə həmdəm olan, şirin ad kimi,
Şəninə boy verən bir soyad kimi,
Dərdimə qalanım, hayanım ata,
Fəxrim-vüqarımsan, ad-sanım ata.

**Oğluma (Oğlum Elçinə)**
Canımdan artıq olan
Canımın bir parcası,
Acılan sabahlarım
Doğan günəşim oğlum. O böyük ürəyini hec vaxt nisgil sıxmasın, Ay oğul, yollarına mərdimazar çıxmasın.
Sən mənim aslan balam,
Məğrur dayan, can oğlum.
Ürəyimin sultanı,
Ömrümə fərman oğlum. Bir gün yəqin ki mən də olmayacam dünyada,
O zaman sarsılma sən Məni gözəl sal yada.
Bax səmalara oğlum,
Dualar göndər mənə Mən də qonaq gələcəm, dayaq olacam sənə. O ala gözlərindən

Hec zaman yaş axmasın,
Dünyanın dərdi-qəmi  Ürəyini sıxmasın.
Məğrur dayan, can oğlum  Dilimin kəsərisən.
Sən ömrümün ən böyük,
ən şanlı əsərisən.
Halallıqla yoğurdum  sənin xəmirini mən.  Nə cətinə düşsən də
Dönmə halallıqdan sən.
Yetimə, kimsəsizə.
Arxa, dayaq ol, oğlum,
Onların da sahibi tək
Allahdır bil, oğlum.  Unutma sən bunları,  hec vaxt qurbanın olum.  Bu həyat imtahandır,  Hər an qalib tək yaşa,
Ömrünü sədaqətlə,
Məhəbbətlə vur başa.  O ala gözlərinə  heç vaxt kədər dolmasın....
Sən dünyamın varısan,
Dünyam sənsiz olmasın!

**Qızım Laçına**

Açılan bir sabahımda
Günəşin şəfəqiylə doğulan qızım.
Bu anasız dünyamda

Ay mənim ana payım. Ürəyimin sevinci,
Səsim-küyüm, harayım.
Hərdən anam olursan,
Anam tək can deyirsən
Hərdən bacım olursan, Məsləhətlər verirsən. Hərdən əziz dost kimi Təsəlilər verirsən. Hərdən də tez dönürsən
Bir balaca qıza sən. Ərköyünlük eyləyib Öz yanından küsürsən.

Gözlərimin nurusan
Ürəyi nurlu qızım. Həm üsyankar mələyim,
Həm də qürurlu qızım. Sən hələ gözlərimdə
bir körpəcə qızımsan.
Xınalı kəkliyimsən,
Bir xınalı quzumsan.
Süfrəmin bərəkəti,
Evimin bəzəyisən. Könlümün gül qöncəsi, Ömrümün çiçəyisən.
Aldığım nəfəs kimi Ananın gərəyisən.
Hər zaman dayağımsan,
Yaşam gücümsən mənim.
Hərdən elə bilirəm
Elə özümsən mənim.
Ay qızım, ürəyindən
Sevgi əksik olmasın.
Gözlərinə, qəlbinə
Heç qəm-qüssə dolmasın.
Bəxtimin gülən üzü,

Ömrümə gedən yolum  Taleyimin ulduzu,
Fəxrim, qanadım, qolum.
Sən mənim Şah əsərim,
Bir analı dünyamsan.  Saf arzulu-diləkli,
Bir sonalı dünyamsan.
Sən dünyamın özüsən,
Dünyam sənsiz olmasın.
Haqqa baxan gözümsən,
Dünyam sənsiz olmasın.
Dünyam sənsiz olmasın...

**Sevdiklərimizə dəyər verək...**

*(Sağlığında qiymət verin insanlara.*
*C.Novruz)* Sevdiklərimizə indi dəyər verək.
İndi sarılaq...
Çünki ölüm gələcək.
Bizdən xəbərsiz...
Səssiz-səmirsiz...

O hər an haqdır. Zamanın ayrılıq əli əlimizdə, Tez-tez qapımızı döyəcək.

Ayrılığın ögey baxışında Tapa bilməyəcəyik bir-birimizi...

Əcəl gəlib aparanda sevdiyimizi...
Yanacaq ürəyimiz Parcalanacaq qəlbimiz,
Didərgin olacaq ruhumuz.

O zaman anlayacağıq ki,
Bir metrə torpağın altı
Dünyanın o biri ucundan Çox-çox uzaqdı.
Çox-çox uzaqdı...

**Nişanəsiz gedən qız...**
*Bacım Südabəyə*

Yenə fikrim dolaşıb,
Yenə halım qarışıb,
Yenə çıxıb getmişəm
Uşaqlıq illərimə.
Fikirlərim uzaqda,
Yenə ağlımdakı sən
Yenə sakit otaqda
Açıram pəncərəmi,
Yenə sən qəlbimdəsən.
Dənizin səsi gəlir,
Bu səs ilə birlikdə
İsti bir nəfəs gəlir.
Bir pıçıltı qarışır
Bu dənizin səsinə,
Bu səs sənin səsindi
Sanki bir isti nəfəs,
Dəyir bu an üzümə.
Bu sənin nəfəsindi,
Deyirsən, can ay bacı

Niyə fikirlisən sən,
Deyirəm bacın qurban, Nə yaxşı ki, gəlmisən.
Gülümsəyib  baxırsan, Sakit-sakit üzümə.
Gülüşünü gördükcə,
Qayıdıram özümə. Arzular ümman-ümman,
Xəyallar karvanında. Kaş bir dəfə, bircə yol,
Sən olaydın yanımda.
Gəl tutaq biz əl-ələ,
Qayıdaq kəndimizə.
Nə olar ki, ay bacı,
Bircə  yol da gəl bizə.

Yenə axşam düşübdü
Yenə qaş qaralıbdır.
Yenə evimizdəyik,
Anam süfrə salıbdı.
Yığışmışıq bir yerə,
Ömrün xoşbəxt anıdı.
Atamın gül  balası,
Anamın gül balası. Yadındamı uşaq vaxtı, Ulduzları bölərdik. Bu mənim, bu da sənin, O da onun, deyərdik.
Çox sevərdim göyləri,
Uçmaq  istərdim  ora,
Deyərdim ki, kaş  mən də,
Çataydım  ulduzlara.
Sən deyərdin ay bacı,
Elə demə nə olar,
Birdən uçan boşqablar, Gəlib səni aparar.

Mən də hərdən doğrusu,
Qorxardım bu sözlərdən,
Ürəyimdə sadəcə,
Arzulardım göyü mən.
Gəl mehribanım bacı.
Gəl tutum əllərindən,
Buraxmayım səni mən.
Gəl sarılım boynuna, Gəl öpüm üz-gözündən.
Axı bir vaxtlar sən də,
Qucaqlayardın məni
Deyərdin ki, istərəm,
İş adamı olasan,
Hamı tanısın səni.
Mən də deyərdim vallah Sözün qurtarıb sənin.
Nəyimə lazımdır ki,
Axı tanınmaq mənim?
Eh, illər keçdi bacı,
Ömürdən çoxu getdi.

İş adamı da olduq, Çoxu tanıdı bizi. Amma sənsiz yaşadıq, Heyf, bu ömrümüzü.

Sən mənim atam idin,
Sən mənim anam idin.
Bütün varlığın ilə,
Halıma yanan idin. Rahat uyu məzarda,
Atamın yadigarı.
Nişanəsiz gedən qız,
Ömrümün ilk baharı.
Dualarımda sənə,

Hər gün pay ayırıb mən,
Allahın dərgahında,  Qəbula göndərirəm.
Rahat uyu, can bacı.
Məzarın nurla dolsun!
Hökm Allahın hökmüdür! Yerin cənnətlik olsun!
Yerin cənnətlik olsun!

**Nənəmin samovarı**

Evimizdə ən əziz,
Ən qiymətli bir şey var.
Nənəmin yadigarı,
İri, sarı samovar.

Bir zamanlar deyərdi,
Mənim mehriban nənəm.
Dili şirin özü şən,
Bağı gülüstan nənəm.

Gördüyün bu samovar,
Babandan qalıb bizə.
O, çox şahid olubdu,
Xoşbəxt günlərimizə.

Nənəm köçdü dünyadan,
Onun şən səsi qaldı.

Sanki istəyimizi,
Sarı samovar aldı.

İndi bizim ailədə,
Çox qiymətli bir şey var.
Nənəmin yadigarı
İri, sarı samovar.

**Kəndimiz yada düşür...**
Düşüb xəyallarımın
Yenə şirin vaxtına... Əyləşirəm ömrümün
Şirin-şəkər taxtına...
Keçirəm uşaqlığın,
Gəncliyin xoş çağından
Keçirəm kəndimizin
Sakit axan çayından...
Boylanıb gül qoxulu
Çiçəkli çəmənindən
Dərirəm laləsindən, Küskün bənövşəsindən.
Bağ-bağçamız gülüşür,
Kəndimiz yada düşür...
Göz gəzdirib sürməli
Al-əlvan meşəsinə. Üzümü söykəyirəm
Dağların sinəsinə..
Çobanın tütək səsi,
Yazın ılıq nəfəsi
Qonum-qonşu harayı,

Sevindirir hər kəsi,
Bulud-bulud yağışlar.
Qəlbimin sərinliyi,
Torpaq qoxusu duyur, Ruhumun dərinliyi.
Könlüm elə üşüyür
Kəndimiz yada düşür...
Qol budaqlı çinarlar,
Yollara işıq saçır. Neçə qəlblərə fərəh,
Ümudlərə yol açır...
Neçə ömür sirdaşı,
Neçə sevən ürəyə Olubdu yol yoldaşı. Hər düşən yarpağında,
Bir sevdanın izi var,
Hər yarpağın köksündə,
Bir yarımçıq arzu var.
İllər necə ötüşür...
Kəndimuz yada düşür...
Atalı, həm analı
Ömümün ən xoş günü.
Necə də sevinərdik
Kəndimizin toy günü.
İsti ocağımızın
Başına yığışardıq,
Nağıllı gecələrdə
Nağılla yarışardıq.
Doğmaların ətrini
İndi kənddən alıram, Ömrü günü beləcə
Sakit yola salıram

Yolların ayrıcında Xəyallarım görüşür
Kəndimiz yada düşür...

**Goranboyum**
Doğulduğum ana yurdum,
Qucağında məskən qurdum.
Sənlə hər an qürur duydum.
Doğma yurdum Goranboyum.

Sən bir ata ocağımsan,
İsti ana qucağımsan,
Könlümdəki çırağımsan,
Doğma yurdum Goranboyum.

Oğulların igid, ərən,
Hər birisi  oldu vətən.
Könülləri eylədi şən
Doğma yurdum Goranboyum.

Nəqarət
Murov, Kəpəz əhatəndə,
Dayanmısan dağlar kimi,
Oğulların zirvələrdən
Şığıyar qartallar kimi,
Doğma yurdum Goranboyum.

Oğul kimi zərrə qədər
Torpağını vermədilər,
Düşmənə çaldılar zəfər,
Doğma yurdum Goranboyum.

Xuraman qızın sevinir,
Şəninə şeirlər deyir,
Fəxrr edib özünü öyür,
Elim, obam Goranbaoyum,
Doğma yurdum Goranboyum.

**Mən göy adamıyam...**

Mən göy adamıyam, yerlə işim yox,
Mən göydəin gəlmişəm, göy adamıyam.
Haqqın aşiqiyəm, haqqın  günəşi
Ağıl adamıyam, bəy adamıyam.

Gözü yaşlı haqqın sinəsin açıb,
Nə gecəyə sığdım, nə də gündüzə.
Çəkib  içimdəki qaranlıqları,
Dönmüşəm haraycı, coşğun dənizə.

Mən göy adamıyam, yerə sığmaram, Gizli gələn payız, səssiz yağışam.
Gülən azadlığa bir salam verib,
Haqqın güzgüsünə qonan naxışam.

Su kimi durulur ömrün illəri,
Göyün söz yarağı, sözün yeriyəm.
Yerlə-göy arası mələk libaslı,
Haqqın sərhəddiyəm, sözə dirəyəm.

Mən göy adamıyam, eşidin məni,
Göyün göy qurşağı, səma rəngiyəm.
Gülən azadlığın əlindən tutub, Yerin nəfəsinə çəkən biriyəm.

Asıb günahından günahkarları, İldırım oluram, şimşək çaxıram.
Dənizdə yuyulan ləpələr kimi,
Sahildən sahilə ümid axıram.

Mən Təbriz yoluyam, Dərbənd yoluyam,
Salıram yolumu ayrılıqlara.
Bu ağır yolları alıb çiynimə,
Ümid daşıyıram, ümid yollara.

Mən qartal vüqarlı, dağ havalıyam,
Mən vətən ruhluyam, şəhid məkanlı.
Dodağımda günəş-günəş söz açıb,

Olmuşam vətənə mən ikicanlı.

Mən göy adamıyam, göylərdən enib, Haqqın-həqiqətin zümzüməsiyəm.
Xuraman adında bir vətən qızı,
Azərbaycan adlı vətən səsiyəm.

**Döz ürəyim**
Əgər varsa səndə mətanət, dözüm,
Dözülməz dərdlərə gəl döz, ürəyim.
Kiminsə gözündə ucalmaq üçün,
Yalana can atma, ol düz, ürəyim.

"Yersiz gülümsəmə, yersiz danışma", Sevmə bir yalanı, yersiz tərifi.
Peşiman hallara vaxtı ayırıb,
Demə ki, aldatdım filan hərifi.

İnsanlar həyatda müxtəlif olur.
Biri sadə olur, biri ədabaz.
Sən sev sadəliyi, onunçün sev ki,
Qışını görməmiş, olma bahar, yaz.

Əgər xoşlamırsan düz söz, düz hədəf, Demək saf deyilsən, təmiz deyilsən.
İnanıb yalana, uyma hər kəsə,
Gözümdən düşərsən, taxtdan əyilsən.

Məni sevdiyin tək bil, yaşatmasan, Demək sən acizsən, aciz, ürəyim.
Səni sevənləri bacar, sən də sev,
Olmasın bir kimsən sənsiz, ürəyim.

**Haqq aşiqiyəm**

Haqqın-ədalətin əlindən tutub,
Üzü yaxşılığa getdim həmişə.
Kinli baxışlardan, naqis üzlərdən, Gizlətdim üzümü, itdim həmişə.

Açdım ürəyimin pəncərəsini,
Eşitdim yadın da doğma səsini, Uddum acı dadan xoş kəlməsini,
Hər kəsin yolunda bitdim həmişə.

Mən Allah yolunda, haqqın elçisi,
Olmadım nadana heç zaman asi, Bəzən tapmayanda bircə içim su,
Oldum dərya, dəniz, yetdim həmişə.

Doğru olmaq üçün yaranıb bəndə,
Allahı düşünün, hər nə edəndə,
Yaxşılıq yerinə pislik görəndə,
Göz yumub, unutdum, ötdüm həmişə.

Bilmədim dadını kin-küdurətin,
Quluyam, doğrunun, saf məhəbbətin,
Yalanın çox gördüm düz həqiqətin,
Düz oldum, düzlüyə çatdım həmişə.

Könlümün gözünü oyub keçənlər,
Yaxşılıq adını pisə seçənlər,
Ay yalan yerinə düz and içənlər,
Ömrümü  mən sizə satdım həmişə.

Xuraman Muradam, sözdə sərrafam,
Haqq aşiqiyəm, doğruyam, safam,
Mən göyün adamı, mən yerə yadam,
Mənə doğru atın addım, həmişə.

**Ağaclar...**

Niyə ağlayırsız, donmu vurubdu,
Qışda yarpağını tökən ağaclar.
Bəlkə tənhalıqdan üşüyürsünüz?
Qəlbimi köksümdən sökən ağaclar.

Hər kəsin qəlbinə meh olub əsdiz,
Yayda istisinin  yolunu kəsdiz,

Dostanmı incidiz, məndənmi küsdüz?
Boynunu vədəsiz bükən ağaclar.

Yayda kölgənizdə dincələn kəslər,
Qışda qayğınızı beləmi bəslər,
Qolu kəsiləndə de kimi səslər,
Gözünü yollara dikən ağaclar.

Neçə sevgilərin şahidi kimi,
Sevən ürəklərin titrəyən simi,
Dəli sevdaların olduz hakimi,
Yükünü çiynində çəkən ağaclar.

Yoxsa gücünüzmü qalmayıbdı heç?
Sevən qəlbinizmi olmayıbdı heç?
Sizləri yadına salmayıbmı  heç,?!
Hər kəsin evini tikən ağaclar...

**İnsanla yarıdır sözü!**

Bu dünyanın cövhəridir gözəl söz,
Yaşadar insanı, ömrü uzadar.
Söz dünyanın haqq-ədalət güzgüsü,
İnsanın ömrünə bir ömür  yazar.

Sözdə yaranıbdı hər bir hikməti,

Sözün işığında oyanıb dünya.
Bəzən qaranlıqdı, gecələr kimi,
Bəzən söz qanına boyanıb dünya.

İnsan ilham alıb sevdiyi sözdən,
Bəzən sakit olar, bəzən kükrəyər.
Söz var ki, insanı öldürər bir an,
Söz var ki, insanı xilas eyləyər.

Söz var ki, insanın başının tacı,
İnsan var sözünün sahibi deyil.
Söz var  ki, insanın tək ehtiyacı,
İnsan var əməli sözlə bir deyil.

Sözüylə bəzəkli naxışdı dünya,
Dünyanın canıdı, varıdı sözü.
Bəlkə də bir quru baxışdı dünya,
Bəlkə də insanla yarıdı sözü...

## Yenə gəlsin Ramazan

Ey böyük Yaradanım,
Nə yaxşı ki, sən varsan.
Yenidən yaşat bizi,
Yenə gəlsin Ramazan.

İşıqlansın qəlbimiz,
Ramazanının nuruyla.
Könlümüz dilə gəlsin
Xoş niyyət, xoş arzuyla.

Təzələnsin ruhumuz
Təkcə sənin adınla.
Haqqın yolunu tapdıq,
Müqəddəs Quranınla.

Nəsib eylə Sən bizə
Hər gələn Ramazanı.
Ömrümüzə pənahdı
On bir ayın Sultanı.

Bizi hidayət eylə
Xoş olsun hər anımız.
Kamil olsun hər zaman,
Ağlımız, imanımız.

**Çalış**

Kimsənin qəlbinə dəymə, toxunma.
Dəysən də o könlü almağa çalış.
Dostların gözündə mərd ol, uca ol.
Daima ucada qalmağa çalış.

Boş vədlərə uyub boşuna yanma,
Doğrunu doğru de, sözünü danma,
Özünü heç zaman ucada sanma,
Qəlblərdə bir körpü salmağa çalış.

İstisi bir olmur alovun, hisin,
Qəlbində kövrəklik vardır hər kəsin,
Verıb qiymətini yaxşının, pisin.
Könüllər sultanı olmağa çalış.

İnsanda nəfs var heç zaman doymaz,
Allahı sevənlər şeytana uymaz,
Qəlbi daş olanlar sevgini duymaz, Arabir xəyala dalmağa çalış.

Hər gözün görənə eyləmə həvəs,
Çalış sadə dolan, sadə danış, gəz,
Bu dünya malına meyl etmə əbəs,
Haqq adlı bir izi qoymağa  çalış..

**Hər kəsdə olaydı** Hər kəsdə olaydı vəfa, sədaqət,
Ürəyi sözüylə kaş düz gələydi..
İnsan bir-birinə verəydi qiymət..
Gözəl söz eşıdıb hey dincələydi..

Çoxları dinləyə öyüd-nəsihət,
Pislər yaxşılardan götürə ibrət,
İnsanın canında olaydı qeyrət.
Haqqın qapısını aça biləydi...

Halallıq hər evdə olaydı başda,
İnsan yaşamaya qorxu, təlaşda,
Ömür şirin olur axı hər yaşda,
Kədərsiz yaşayıb köçmək olaydı.
İnsanın yaşamaq, qurmaq hünəri,
Gətirə ömrünə gözəl xəbəri,
İnsan bir- birinə verib dəyəri.
Vəfasız dünyada qədrin biləydi...

**Ürəyim**

Yenə cuşə gəlib yazmaq eşqiylə,
Dərin xəyallara dalır, ürəyim. Toxunarsa ona bir nadan sözü,
Özünü tez ələ alır, ürəyim.

Mənəm  deyənləri müqəddəs tutmur,
Nədəndi dərd-qəmi çox tez unutmur,
Hər yana hey qaçır, çox zaman çatmır, Özüylə baş-başa qalır  ürəyim.

Bulağın suyu tək safdı, təmizdi,
Həsrətli Arazdı, coşğun dənizdi,
Vətəndi, hər kəsə doğma, əzizdi, Arabir çox kövrək olur ürəyim.

Xuraman qəlbinə dəymək istəmir,
Hər şeyi üzünə demək istəmir,
Özünü heç zaman öymək istəmir,
Gizlicə boşalıb, dolur ürəyim.

**Qadınlar**

Qadınlar həssasdır, qadınlar kövrək.
Qadınlar daşıyır zərif bir ürək.
Kişilər, qırmayın qadın qəlbini!
O gözlər yollara baxmasın ürkək.

Qadınla davranmaq bir incəlikdir, Qadınlar sevimli incə çiçəkdir.
Onların qədrini bilmək gərəkdir,
Qadın yer üzünə gələn mələkdir.

Qadın gözəllikdir, qadın təravət!
Qadındır dünyanın şərafət yeri. Siz onu qoruyun, qoruyun hər an,
Qadındır dünyanın ləli-gövhəri.

## YARIM QALAN MƏKTUBLAR...

**Sənə məktub yazacam...**
**Nəğmə**

Sənə məktub yazacam…
Yazacam şirin dillə.
Könlünü ovunduran-
Yazacam üç-beş cümlə.

Sənə məktub yazacam…
Yağışın yağmasından.
Günəşin doğmasından,
Küləyin əsməsindən.
Nəbilim daha nədən,
Yazılası çox şey var,
Amma yazmayacam mən,
Sənə olan sevgimdən…

Sənə məktub yazacam
Səndən uzaq yerlərdən,
Hər sətir bir xatirə
Sənsiz keçən günlərdən.
Ama yazmayacam mən
Sənə olan sevgimdən…

Sənə məktub yazacam
Xatirəmdəki izdən
Sənə məktub yazacam
Yerdən, göydən, dənizdən
Sevdiyim nələr varsa
Yazacağam ondan mən
Xəyallarda baş alıb itən ümidlərimdən…
Ama yazmayacam mən
Sənə olan sevgimdən…

Sənə məktub yazacam,
Ya bu gün, ya da sabah.
Əsas odur yazacam,
Amma oxu, sən Allah.
Yazacağam çox sadə,
Bəlkə də üç-beş cümlə.
Yağışın yağmasından,
Günəşin doğmasından,
Küləyin əsməsindən.
Nə bilim daha nədən,
Yazılası çox şey var,

Amma yazmayacam mən.
Sənə olan sevgimdən…

**Elə küsərəm səndən…**

Mən elə küsərəm səndən, əzizim, Bir daha üzümü görə bilməzsən.
Mən eləküsərəm səndən əzizim, İstəsən də geri dönə bilməzsən.

Sənə olan sevgim sonsuz olsa da,
Danışa bilməzsən, dinə bilməzsən.
Yanarsan qəlbində sən için-için,
Dərdini kimsəylə bölə bilməzsən.

Mən elə küsərəm səndən, əzizim,
Durnalar ağlayar göyün üzündə.
Küsərəm sevdanın göz yaşlarına
Zülmətə çevrilər dünya gözündə.

Son payızda  əsən soyuq küləklər, Aparar sevgimi cox uzaqlara.
Fikrin bir nöqtədəilişib qalar, Gözlərin tikilər uzaq yollara.

Mən elə küsərəm səndən, əzizim,
Bulud tək hönkürər həsrət gözündə
Qalarsan hicranın ümidlərində,
Bir sevda göyərib bitər sözündə…
Bir sevda göyərib bitər sözündə…

**Darıxsan, oxu, ağla!**

Yaz notlara dərdimi,
Mənə ümid bəstələ...
Dərdlərimə nəfəs ver,
Nəğmələrində səslə...

Küsən xəyallarımla
Dumanlarda gəz məni.
Soyuğunda azdığım
Həsrətinlə kəs məni.

Gecənin yaxasından Asılan ulduz kimi.
Qaranlıqlar içində
Susmuşam yalqız kimi.

Dərdimin tumarı var
Yağan yağışlarında.
Həsrətim buz bağlayıb,
Donan baxışlarında.

Dərdimin notlarını
Heç kəsə vermə, saxla.
Bu, bir ömür sirrimdi,
Darıxsan oxu, ağla!

## Unutmağa haqqım var

Deyirsən unutmuşam, unutmağa haqqım var,
Hansı bahar günəşsiz, hansı qış qarsız olar? Fikrində var yenidən bir də məni görəsən.
Vəfasız ürəyinlə ürəyimə girəsən?
Qəlbimin qapısını bağladım, dedim yəni...
İzin vermərəm ki, heç, sevəsən bir də məni. Bir zamanlar qəlbimə sən hakim kəsilmişdin,
Ürəyimdə ən əziz bir gül tək əkilmişdin.

Heyf, sənin istəyin ancaq bircə yaz oldu,
Arzun da, ilqarın da qəlbin tək dayaz oldu, İndi gileylənirsən unutmuşam səni mən.
Buna görə incimə nə taledən, nə məndən.
Öz həyat yollarında sən özünsən günahkar,
Unutmağa haqqım var, unutmağa haqqım var!

**Səni yuxuda gördüm**

Bu axşam yuxuda görmüşəm səni, Çox qəmli-kədərli, çox kefsiz idin.
Dedin ki, həsrətin çox sıxır məni,
Gözlədim yolunu, niyə gəlmədin?!

Dedin sənsizləşib gözümdə həsrət,
Öpüm gözlərindən, həsrətim gülsün.
Sənli günlərimin intizarı var,
Nə qəmin-kədərin var, mənə gəlsin.

Bir anın içində çəkildi duman,
Sanki nur çiləndi göyün üzünə.
Elə gözəlləşdin, elə sevindin,
Ayıldım yuxudan gülüş səsinə.

İstədim bir anlıq yuxuya gedib, Sənin gül üzünü görməkçün yenə. Heyf ki, nə yuxu, nə səni gördüm,
Uzatdım, əllərim çatmadı sənə.

**Söylə, harda qalmısan**

Göz yaşım tək axıb gedən, Bir sözümlə çıxıb gedən,
Ay könlümü sıxıb gedən,
Söylə harda qalmısan?

Bir nəğməli sözün olam,
Axıb gözlərinə dolam,
Sənə işıqlı bir yolam,
Söylə harda qalmısan?

Gəl könlümün ay işığı,
Həyatımın yaraşığı,
Həsrətimin göy qurşağı, Söylə harda qalmısan?

Sevgimizin öz adıyam,
Həsrət adlı qanadıyam,
Bilirsənmi, mən hardayam
Söylə harda qalmısan?

**Gizli məhəbbət**

Səni  gördüyüm tək gündən,
Qəlbimdə baş qaldırdı ülvi bir istək.
Nə bir kəsə deyə bildim, nə danışdım...
Səni süzdüm ancaq,
Oğrun-oğrun xəlvət -xəlvət, Məni yarpaqtək saraltdı...
Get-gedə bu həsrət
Qəlbimi üzən bu imiş
Gizli məhəbbət gizli məhəbbət...

**Ötdü sevgi qatarı**

Mənə olan sevgini,
Adi dostluq sanmışam.
Heç özüm də bilməyib
Heyf ki, gec anmışam…

Baxışında gizlədib
Ürəyində yanmısan.
Sən bu dəli sevgini
Niyə məndən danmısan?

Dəniz tək cağlayanda
Səni damla sanmışam. Gəmin getmiş limandan,
Bağışla, yubanmışam...

Ötdü sevgi qatarı,
Taleyimiz ayrıldı.
Böləndük fəsillərə,
O sevgi harda qaldı…

Apardı gəncliyimi,
Ötüb kecən o illər.
Heyf sənsiz yaşandı  Sənsiz keçdi fəsillər.

Bu sevgi qonaq kimi  Gəldi getdi eləcə...
Nə biləydik bu sevgi,
Aramızda öləcək…

## Hərdən yalan danış

Hərdən mənə yalan danış,
De ki, hər şey lap yaxşıdı.
Heç demə ki, dərd çəkirəm
De ki, keyfim lap yaxşıdı.

Hərdən mənə yalan danış,
Arzuların sayı qədər.
Gecənin ay işığında,
Ulduzların payı qədər.

Hərdən mənə yalan danış,
Həsrətimin rəngi kimi.
Susub qalan sevdamızın
Bir cavabsız rəngi kimi.

Yalanların şahid olsun
Dərdimin çəkdiyi kefə.
Hakimimiz qəddar olsun,
Qərar da verməsin əfvə.

Hərdən mənə yalan danış,
Baxışları gerçək olsun.
Nəfəsi bahar qoxulu,

Əllərində çiçək olsun.

Bu yalanlar dünyasında
Bizim də olsun yerimiz.
Bu taleyin oyununda,
Qonaq gəlsin həsrətimiz...

**Bir şəhərdə yaşayırıq**

Bir şəhərdə yaşıyırıq.
      gəzirik, ayrı-ayrı...
Bəlkə də eyni yolları
      gedirik ayrı-ayrı...
Bu şəhər ömrümüzün
Ən şirin xatirəsi.
Bu yollar ruhumuzun
Kövrək, ayrılıq səsi...
Bu şəhərin gecəsində
Açmışıq gündüzləri...
Bilə-bilə itirdik,
Ömürdən  ötüb keçən
Bizsiz neçə illəri...
Eh...bu yollar apardı
Bizi ayrılıqlara...
Könüllər susqun oldu
Üzü ayrılıqlara...

Bu yollar bu şəhərin
Könül pəncərəsiymiş...
Darıxan ümidlərin
Bir sevdalı səsiymiş...
Nə zamanın, nə vaxtın
Nə taleyin, nə baxtın
Uzaq gedən yolları,
Nə açılan, bağlanan
Nə də sınan qolları,
Deyilmiş...indi bildim..
Bu yollar ömrümüzün
Gizli, saf duyğuları.
Son bahar dumanları,
Son bahar rüzgarları.
Vüsal adlı həsrətin
Açılmayan qolları...

**O gedən gəlməyəcək**

Əl atıb bu sevdanın Yaxasından asılma.
Xəzanlı yağışların Sinəsinə qısılma.
Ömür, gün də keçəcək..
O gedən gəlməyəcək...

İtəcək oğrun-oğrun, Ümidlərin ünvanı.
Buz bağlamış arzular,
Üşüdəcək dünyanı.

Gözlərin yol çəkəcək...
O gedən gəlməyəcək...

Həsrətin qucağında
Yuxuya  vermə qəmi.
Bəxtin boş əllərində Qatma bütün aləmi
Bu qəm uzun çəkəcək
O gedən gəlməyəcək....

Sızıldama bu eşqin Can verən nəfəsində.
Darıxmağı unut sən Hər gecənin səsində.
Sorma nəvaxt gələcək?
O gedən gəlməyəcək...

Səndən gedən vaxtını Nigaran könlünəyaz.
Həsrətin baxışında,
Gələcək min bahar, yaz
Durnalar da dönəcək
O gedən gəlməyəcək...

Soyuq sətirlərimin
Kiprikləri yaşlanır.
Darıxmağın yeri yox,  Gecə yaman uzanır... Gəl bu həsrətdən əl çək O gedən gəlməyəcək.

Hər qapın döyüləndə
Sanma qayıdıb gəlib. Daha yollara baxma,
Elə küsüb gedibdi,  O geri dönməyəcək..

O gedən gəlməyəcək.

Payız rəngli ayrılıq,
Dayanıb yollar üstə.
Daha onu səsləmə,
Daha onu az istə
Pəncərədən gözün çək, O gedən gəlməyəcək.
O gedən gəlməyəcək...

**İzlərimiz**

Göz önümdə durmusan,
Bir sən, bir mavi Xəzər.
Oxuyur  nəğməsini,
Yenə şıltaq ləpələr.

İkiniz də birlikdə,
Nəğmə deyirsiz mənə.
Səsinizi qoşursuz Ləpələrin səsinə.

Bu gün sən də xoşbəxtsən,  Mən də, mavi dəniz də.
Uyuyur  sahillərdə,
Tənha izlərimiz də.

Sevirəm sədasını,
Əks etdirir dalğalar. Ayaq izlərimizi,
Yuyub aparır  sular.

Silinsə də  sahildən Bugünki izlərimiz.
Xəzərlə qalacaqdır,  Sevgi nəğmələrimiz.
Bizim nəğmələrimiz...

**Sevgi işığı**
Sənin gözlərini gördüyüm gündən
Bu sorğusuz, bu sualsız sevgiyə
Elə isə qəlbimi alıb əlimdən
Tənha qoydun məni, söylə bəs niyə?!

Bir sabah bir damla şehə dönüb mən, Sənin qoxladığın gülə qonacam.
Həyatda heç zaman görüşməsək də, Mən səni səsləyib, səni anacam.

Ömrüm bəzənəcək gül tək, çiçək tək,
Sənin bu gecikmiş məhəbbətinlə. Üzünü heç zaman görməsəm də  mən,
Qoşa gəzəcəyəm səadətinlə.

**Bir gün olmayacam**

Bir gün arzulayarsan məni... Cadar-cadar torpaqlar

yağışı arzuladığı kimi. Bir gün arzulayarsan məni...

Çarəsiz bir xəstənin Gözlərini pəncərəyə dikib

Günəşin doğuşunu gözlədiyi kimi. Bir gün arzulayarsan məni...

Bir məhbusun dəmir barmaqlıqlardan

Azadlığa həsrət qalmış

baxışları kimi.

Bir gün arzulayarsan məni... Neçə illərin sevgi nəşəsindən alışan dodağların buz nəfəsli naxışları kimi...

Amma o gün mən olmayacam...

Nə də yağış yağmayacaq. Məni yetirən o ana,

Daha məni doğmayacaq…

**Artıq o yerlərə dönməyəcəyəm**

Xəyalım baş vurur xatirələrə,
Oxşamır könlümü nə dağ, nə dərə,
Çıxıb gedəcəyəm bir qürbət yerə,
Artıq o yerlərə dönməyəcəyəm.

Ruhumu dəyişmiş o bahar, o yaz,
Gördüyüm güllərdə yoxdur işvə, naz,

Küsüb barışsam da könlümlə bir az, Artıq o yerlərə dönməyəcəyəm.

Anam laylasını desin könüldən,
Hicran kəlməsi düşməsin dildən,
Qoxumu alarsız çiçəkdən, güldən, Artıq o yerlərə dönməyəcəyəm.

Alıb götürsə də küləklər məni,
Axtarıb tapacaq ürəklər məni,
Çəksə də o torpaq, o yerlər məni,
Artıq o yerlərə dönməyəcəyəm.

**Səni yaşadacam**

Səni məndən alıb aparan yollar.
Mənə qaytaracaq, bilirdim bunu.
Yenə gələcəksən sən həyatıma… Yenə olacaqsan ömrümün nuru.

Sənli xəyalımla tutub əl-ələ,
Gedəcəm səninlə bir sevgi yolu.
Sənsizlik ömrümə gecikən qatar,
Sənsizlik sevgimin bir hicran qolu.

Qayğılı, qayğısız ömür yaşayıb, Quracam səninlə gözəl bir aləm.
Bu dünya dərdini unutmaq üçün
Son anda biləcəm mən tək deyiləm.

**Demişdin ki…**

Demişdin ki: "yağmur kimi həyatına yağan mənəm, Hər səhərdə günəş kimi sabahına doğan mənəm.

Hər gecənin hər gündüzün asılmışdır yaxasına
Birazda həsrət qatmışdın sevdamızın yuxusuna

Bulud-bulud xəyalların göz yaşında dinəndə sən, Arzuların qanadında zaman-zaman enəndə sən.

Yoxsa ömrün yaylasında qışladımı dediklərin?
Yoxsa tərsinəmi çıxdı eşq adına diləklərim.

Çox arzular keçib getdi, xəyalının körpüsündən,
Bizə tək xatirə qaldı, yağdığım yağmur səsindən...

**Çıx get məndən uzaqlara**

Çıx get məndən uzaqlara,
Dərdimdən anlamayanım.

Get, gözlərimdən uzaq ol,
Heç halıma yanmayanım...

Nə söyləyən dilim oldun, Nə qəlbimdə yanan atəş.
Nə yanğıғa bir ovuc qar,
Nə bəxtimə doğan günəş...

Get, artıq məndən uzaq ol, Ey dərdimdən bixəbərim. Qəlbim kədər dolu məktub, Bilmirəm hara göndərim?

Səni ömür yollarımın,
Buz həsrətinə yazdım mən.
Sənlə bağlı ümidləri,
Röyalar kimi yozdum mən.

Həsrətimə sığal çəkən,
Bulud dolu baxışam mən,
Səndən elə küsmüşəm ki,
Çətin bir də barışam mən.

**Unutma məni**

Bu gecikmiş sevgimiz Söylə harada qaldı? Xəzan vurmuş gül kimi
Rəngi saralıb soldu.

Nə zaman səni ansam
Gözlərim yaşla doldu,
Unutma, sən də məni unutma.

Bahar çiçəkləri də
Küsüb incidi məndən,
Sənsiz son bahar gəldi
Saçlarıma düşdü dən. Mən ki, gəl deməmişdim, Ömrümə gəldin nədən.
Unutma,sən də məni unutma.

Gör görüşmədiyimiz,
Nə zamandır, haçandır.
Dedin fikrində mənəm,
Xəyalların dumandır.
Bu gecikmiş sevdamız
Nədən belə uzandı,
Unutma, sən də məni unutma.

Biz yetişə bilmədik,
Sevgimizin hayına.
Hicran oxu gərildi
Ömrümüzün yayına.
Daha ayrılıq düşdü
Sevdamızın payına.
Unutma, sən də məni unutma…

**Uzaqlara getmə...**

Hara aparacaq o yollar səni,
Getdiyin yerlərdə varammı heç mən?
Uzağa çəkilib itmə gözümdən, Mənsiz o yerlərdə darıxarsan sən.

Darıxar gözündə açılan səhər, Güllərin şehi tək titrəyər əlin. Bu dünya gözündə zindana dönər,
Sənə ağır gələr "xoş" əməllərin.

Qoyduğun hər izdə baxışın donar, Qəlbini bürüyər qatı duman, çən.
Köksünü incidər intizar yeli,
Sən məni tək qoyub hara gedirsən?

Həsrətin əlləri sıxar qəlbini,
Dönüb baxacaqsan yoxam o yerdə.
Darayar saçını qəm küləkləri,
Sevgin tənha quş tək uçar göylərdə.

**Küsdüm mən**
Yaşanması mümkün olan,

Yaşanmayan İllərimdən küsdüm mən...
Qışda qönçələr gətirən
Açılmayan, ayaz vuran
Güllərimdən küsdüm mən…

Vətənimin dərdli səsi,
Harayında qəm nəfəsi,
Zamanında deyiləsi,
Danışmayan  Dillərimdən küsdüm mən...

Yaranmışam haqq səsindən
Doğru olan kəlməsindən,
Haqsızlığın pəncəsindən,
Qorunmayan,
Ellərimdən küsdüm mən...

Qeyrət köynəyindən çıxan,
Haqqa doğru əyri baxan,
Araz kimi sakit axan,
Çağlamayan,  Sellərimdən küsdüm mən...

Dərd sığallı həsrətimin,
Üzə gülməz məhəbbətin,  Çox kecikmkiş  bir sevgimin,
Həsrət dolu
İllərindən küsdüm mən.

**Sənə nə söyləyim...**

Mən sənə nə deyə bilərəm axı?
Yollar da sənindi, iz də sənindi.
Mən sənə nə deyim, nə deyim axı, Həsrətə qərq olan göz də sənindir.

Mən sənə nə yazım, nə söyləyim ki,
Getsin xəyalından yalın arzular.
Ömrünü üşüdən, qəlbini didən,
Çəkilsin yolundan qara sevdalar.

Gəl dolub boşalma yaz buludu tək, Neyləyək, bu tale, bu da ki, qismət.
Yağdırma gözündən yağışı, qarı,
Unutma, tufansız olmur məhəbbət.

Asıb kipriyindən darıxmağını,
Gecəni çiyninə alıb gəlmisən.
Səhərin toranlı duman gözündə,
Sevda yuxusuna qalıb gəlmisən...

Sənə nə söyləyim, daha nə deyim, Həsrət çiçəkləyib bəxtin üzünə.
Sənlə bir yol gələn sevdalı ömrün, Rəsmini çəkəcək eşqin gözünə...
Sənə nə söyləyim, başqa nə deyim...
Daha nə deyim.....

**Unuda bilsəm əgər…**

Unuda bilsəm əgər, unudacam səni mən,
Siləcəm yaddaşımdan bütün xatirələri
Son bahar yağışı tək, yağacağam göylərdən
Yuyacam yaddaşımdan sənlə olan günləri…

Yağacam yağış kimi, qopacam tufan kimi, Dolacam bulud kimi, baxışında həsrətin.
İtəcəm ayrılığın buludlu səmasında, Sən məni axtaranda, çətin taparsan, çətin.

Unudacam bilirəm səni də, özümü də,
Yox olub mələk kimi çəkiləcəm göylərə.
Tapacam itirdiyim tabı da, dözümü də.
Gedəcəm xəyalımda sənli olan günlərə…

Unudacam deyirəm, unutmaq asandımı,
Qəlbimin ağrısından asıram ayrılığı. Bir zaman ürəyimdən sənə ayrılan yolu, Əllərimlə kəsirəm gözlərimdə yaş dolu.
Əllərimlə kəsirəm gözlərimdə yaş dolu…

**Bir sevgi hekayəsi**

Sevgilimdən bir xəbər, varmı dedim rüzgara, Dedi: mən heç görmədim, onu qəlbində ara!

Sonra tutdum üzümü, bahar yağmuruna mən, Susdu dəli yağmur da, yağmadı kədərindən.

Dedi: qurtarsam kaş ki, səni bu intizardan,
Bəlkə xəbəri vardır bir sor mavi Xəzərdən... "Xəbər yox" dedi xəzər, dalğalandı anidən...
Sonra baxdım göylərə, üz tutdum günəşə mən.

Aya sor dedi Günəş, bəlkə də küsmüş idi,
Mən də anlayammadım, ruhum nədən üşüdü.
Aydan xəbər sordum mən, əl eylədi uzaqdan
Qorxdu bu ayrılığa, bəlkə şahid olmaqdan!

Ay da girdu buluda, üzündə qəmlə-kədər,
Dedi: axı sən onu niyə sevdin bu qədər?
Dedi: axı sən onu niyə sevdin bu qədər?

**Mən gedər oldum**

Quşlara deyin uçmasın,
Güllərə deyin açmasın,

Sulara deyin axmasın, Mən gedər oldum....

Dənizlər çağlamasın,
Buludlar ağlamasın,
Dostlarım saxlamasın, Mən gedər oldum...

Ruzgara deyin əsməsin,
Yollarımı kəsməsin,
Sevdiklərim küsməsin, Mən gedər oldum...

Gözlərim yaz yağışıdı,
Buludların naxışıdı,
Sevgilim, son baxışımdı, Mən gedər oldum...

Aləm eşitsin səsimi,
Anam duysun nəfəsimi,
Torpaq açıb sinəsini, Mən gedər oldum...

**Mən göyləri sevərəm**

Mən göyləri sevərəm, Mən yerləri sevərəm. Əl çatmayan müqəddəs,
Hər şeyləri sevərəm.

Ay-ulduzlu gecəni,

Göy səmanı sevərəm. Dünya gözəlliyini,
Asimanı sevərəm.

Nurundan boy atdığım, Günəşimi sevərəm. Qəlbimdə Vətən adlı
Atəşimi sevərəm.

Hər şeyin asan deyil, Çətinini sevərəm,
Haqq yolunun əbədi,
Gülşənini sevirəm.

Güclü ruzigar deyil,
Sakit mehi sevərəm. Güllər üstə gülümsər,
Narın şehi sevərəm.

Ülvi sevgilər kimi,
Mən sevməyi sevərəm.
Tanrı sevgisi qədər,
Sevilməyi sevərəm.

O şeyləri sevdim ki,
Bu dünyada qalmağa.
Dünyanın sərvətləri
Yetməz onu almağa.

**Gəl**

Sıxma ürəyini, daha yaş ötüb,
Gözlərəm, saçına dən düşsə də gəl.
Bilirəm, zaman da çox yorub səni, Başın dərdlərinə qarışsa da, gəl.

Çiçəkli baxçandım, açılan qapın,
Günəşli sabahın, aydınlı gecən.
Tale biz deyəni demir çox zaman,
Nədir ürəyindən bilmirəm keçən...

Tutub əllərindən tale yolların,
Yağış ol, külək ol, lap leysan ol, gəl.
Mən üzü payıza dönən sevginəm,
Sən ömür yazıma şirin paysan gəl…

Yorulduq ümidlə gözləməkdən biz,
Yazılan taleyin göz yaşı olduq.
Çox fikirləşirəm, günahkar kimi,
Bəlkə bu sevgidə biz naşı olduq...

**Ayrılıq külənkləri...**

Ayrılıqlar yağışlar kimi gələr,
Yağışların rəngi olmaz, əzizim.

Ayrılıqlar küləklər kimi əsər, Küləklərin rəngi olmaz, əzizim.

Tənhalığın bulud-bulud göz yaşı, Səmaların qar üzündə kükrəyər.
Küləklərin şaxta, boran savaşı,
Payz ömrün səhrasında titrəyər.

Ümidlərin rəngi qaçmış dodağı, Acı-acı gülümsəyər, əzizim.
Tənha qalan arzuların budağı, Pıçıldayıb başın əyər, əzizim.

Hər açılan sabahları intizar,
Hər gecəni göz yaşları doyurmur.
Ayrılığın payız rəngi sərt olur,
Yağış, külək fəsilləri ayırmır....

Bu həyatın, bu dünyanın boz üzü, Ayrılığın yuxusuz gecələri...
Tənhalıqda parıldayan ulduzlar, Sabahların qəm dolu çiçəkləri..

Ayrılıqlar əlimizdən tutaraq, Ömrümüzə hey yeridi...yeridi.
Kövrəkləşib körpə uşaqlar kimi,
Yavaş-yavaş qəlbimizdə kiridi…

**Kimim var ki dağlarda?!**

Eşitdim ki, qar yağıb, dolu düşüb dağlara,
Fikrim dolanıb getdi, sənli olan çağlara, Xəyalımda ümidlər götürər uzaqlara,
Nədən axı bu ruhum uçar uca dağlara,
Eyy yolu dağdan ötən salam deyin dağlara,
Kimim var ki, dağlarda, dağlar hara, mən hara?!

Yaşayıram könlümün gecikmiş sevdasında
Dağlar boyda həsrət var gözümün qorasında,
Bir sevgi itirmişəm dağların arasında,
Eyy yolu dağdan ötən salam deyin dağlara,
Kimim var ki, dağlarda, dağlar hara, mən hara?!

Bir xatirəyə dönüb sənli olan günlərim
Yarı xəzan güllərm, yarı qönçə güllərim,
O dağlara gec gələr bahar -yaz fəsillərim,
Eyy yolu dağdan ötən salam deyin dağlara,
Kimim var ki, dağlarda, dağlar hara, mən hara?!

Bir çəmənlik yaşılam, o dağlarda izim var,
Bir sevginin yaşıyam, göydən baxan gözüm var,
Səni ruhuma sıxan, alovum var, közüm var,
Eyy yolu dağdan ötən salam deyin dağlara,

Kimim var ki, dağlarda, dağlar hara, mən hara?!

Şəlalə rəngindədir, dağların qərib yeli,
Gözümdə dumanları,qəlbimdə həsrət seli,
Sevda nəğməsi deyir hər çiçəyi, hər gülü,
Ürəyim istəyir ki, cıxıb gedim dağlara,
Bəlkə sirrimi acam, zirvədə qartallara
Ehh…Xuraman bir dayan, dağlar hara? Sən hara?
Ehhh…Xuraman bir dayan, dağlar hara? Sən hara?

**Görən darıxırmı heç?!**

Tutub xatirələrin sevdalı əllərindən,
Könlümə söz yığıram payız xəzəllərindən,
Qayıdıram arabir onlu günlərimə mən
Görəsən o da məni heç yadına salırmı?
Uzaq yollara baxıb xəyallara dalırmı?

O da axşam olanda göylərə baxırmı heç,
Könlünü həsrət ilə yandırıb yaxırmı heç, Gözləri dola-dola görən darıxmı heç? Eh...xəyallar, xəyallar məni hara apardın, Yenə də ürəyimdən bir xatirə qopardın.

Tutub söz yağışına qəlbini isladırmı?
Görüş anlarımızı hec yadına salırmı?
Ürəyi döyünürmü, havası tutulurmu,
Başı dumanlanırmı, könlü hec sıxılırmı
Bilirəm xatırlayır o da məni hər anda

Küıəklər də əsəndə, yağışlar da yağanda...
Küləklər də əsəndə, yağışlarda yağanda…

**Xəyalımda yenə sən…**

Sədaqət, məhəbbət, ülvi sevgiylə
Səni xəyalımda sanmışam, hər an.
Nə qədər uzaqsan, o qədər yaxın
Səni ürəyimdə anmışam, hər an.

Danışıb qəlbimdə, hey gizli-gizli, Sənin gözlərinlə seyrə dalmışam.
Hərdən pıçıltıyla, hərdən xəlvəti,
Sənə çoxlu məktub yola salmışam.

Hər dəfə səninlə görüşəndə mən,
Dost kimi görüşüb ayrıldım səndən.
Sənsiz yaşasamda bu dünyanı mən Yenə xəyalımda sənsən, yenə sən.

**Daha yuxulara inanmıram mən....**

Daha yuxulara inanmıram mən, Yuxular da yalan, sən də yalansan.

Acılı, şirinli xatirələri,
Sən demə unutmaq deyilmiş asan.

Qəlbimdə üşüyən gülüşlərimin, Yaxına, uzağa gedən yolusan. Həsrət gözlərimdən çəkilib gedən,
Acı həqiqətsən, şirin yuxusan.

Daha yollarımda unudulan iz,
Başını bulayıb gedən gileysən.
Xatirə soraqlı, qərib haraylı,
Payızın sonunda əsən küləksən...

Deyirlər yuxular gerçək də olur, Söyləmə yuxunu axan sulara.
Küskün baxışında gizlənib itən,
Sən hara, qəm çəkən o sevda hara.

Yuxular da yalan, həsrət də yalan,
Yuyur sevdamızı payız yağışı.
Soyuq xatirən də yuxuların tək,
Asır gözlərimdən ayrılıq daşın.

Daha yuxulara inanmıram mən, Yuxular da yalan, sən də yalansan.
Yorğunluq asılıb kipriklərimdən, Sənə unutmağım gəlməsin asan.

**Gələcəyəm yenə mən…**

Günün doğduğu yerdə, Gözləyərsən məni sən.
Bitməsin ümidlərin,
Gələcəyəm yenə mən.

Gələcəyəm bir səhər,
Güllər şeh tutan zaman.
Yoldan həsrət yığılsın,
Çəkilsin dağdan duman.

Eşqin qanaqlarını Sərib yollar üstünə. Duracam gündüz gecə
Ayrılığın qəsdinə.

Basıb köksümə yazı, Qışı da yaz biləcəm.
Günəş doğduğu yerdə, Gözləyərsən gələcəm.

Saxlayaq görüşməyin, Vaxtını, vədəsini. Hələ bir az dinləyək,
Həsrətin nəğməsini.

Həsrət-həsrət baxarsan O uzanan yollara.
Açılacaq qolların,
Hələ çox nağıllara.

Xatırlayarsan məni,

Gecə yağmur yağanda. Axtararsan arabir,
Ürəyin sıxılanda.

Gələcəyəm gözlə sən,
Bir yağmurlu səhərdə.
Bir quş qəmli oxuyur,
Günəş batdığı yerdə.

Günəş doğur deyəsən Sakitcə yağır yağış. Söz vermişdim gəlirəm,
Həsrəti geri çağır...

**Yenidən dünyaya gəlmək istəyirəm**

Yenidən dünyaya gəlmək istəyirəm...
Səninlə görüşmək üçün.
Bitib bu sevginin çiçək düzündə
Qalıb sevgimizin dəniz gözündə Səni görmək istəyirəm...
Əssin həsrətimizin vüsal yeli,
Çırpılaq sevginin sahillərinə Düşək eşqin əllərinə..
İtək sevginin şirin ayrılığında... Döyünən ürəyimizin
Sən o tayında, mən də bu tayında...

Yenidən dünyaya gəlmək istəyirəm...
Sənli günlərimin sığalı olmaq üçün.

Sevgimizin titrəyən qollarında,  Bitməyən yollarında
O günlərimin hər saatını
Baxışlarıma çəkmək istərəm.
Həsrətimizə yağan yağışların
Qaranlıq gecəsində sən ay ol, mən ulduz...
Baxaq sevgimizin göy qurşağına,
Açıb qucağımızı taleyin xoş vaxtına
Xatirələri endirək payıza
Özümüz üz tutaq üzü yaza....

Yenidən dünyaya gəlmək istəyirəm...
Sevib, sevilmək üçün.
Eşqin  mirvari dənələrini
Baxışlarından yığıb
Sevgi bağçamızın  çiçək ürəyinə əkilmək üçün.
Nəfəsimin lal kimi susan
Bulaq gözündən
Süzülüb gələn ayrılıqları
Ömrümdən silmək üçün.
Səni ruhuma çəkmək üçün.

**Yarımçıq məktublar....**

Bağışla ki, yazmadım məktublarda sevgimi,

Məktublar da yarımçıq qaldı sevgimiz kimi...
Neyləyim ki, qürurum üstələdi sevgimi …
Ağladı məktublar da bu gecikmiş sevgimi.

Səndən yazacaq qəlbim incidi, küsdü nədən, Yazmadı bircə kəlmə sənə olan sevgimdən.
Oxudu məktubları payızın rüzgarları,
Gözündə yaz yağmuru, ağlatdı buludları.

Məktublar dilə gəldi, intizar gecələrdə, Gecələrin sinəsi əridi pərdə-pərdə...
Bilmədim məktubların yolu niyə bağlandı?
Məktublar da bizim tək düşdü sevdalı dərdə..

Sevgimizin nurunda məktublar gecələrmiş.
Sən demə lal sevgimiz həsrətlə gözləyərmiş.
Yarımçıq məktubların qərib sevdası kimi, Ağlayan sətirlərin göz yaşını sirlərmiş.

Bu sevdanın gözləri hələ çox yol çəkəcək,
Yarımçıq məktublar tək həsrət yaşı tökəcək.
Çox çalışdım məktubu bağışla bitirmədim, Bəlkə yarımçıq sevgi məktubu bitirəcək...

**Gələcək baharda yenə gələcəm…**

Sərib həsrətimi yollar üstünə,
Gələcək baharda yenə gələcəm. Döndərib üzümü mən sənə sarı,
Gələcək baharda yenə gələcəm.

Mənsiz ağarsada hər sökülən dan,
Kəssədə yolumu şaxta,qar, boran
Tutub ümidlərin xəyallarından,
Gələcək baharda yenə gələcəm.

Həsrətimin sükut adlı səsində,
Həssas duyğuların dar qəfəsində,
Qalıb darıxmağın od nəfəsində,
Gələcək baharda yenə gələcəm.

Yolumu Şuşaya, Laçına salıb,
Narin çiçəklərin qoxusun alıb,
Tənhalıq əlində çarəsiz qalıb,
Gələcək baharda yenə gələcəm.

Ovudur könlümü qəmli nəğmələr,
Sevdalı günləri udar gecələr,
Yadıma düşəcək eh... nələr nələr, Gələcək baharda yenə gələcəm.

İncisin yazı da, qışı da məndən,
Uzaq olsun hicran yaşıda məndən,

Yolumu salacam şehli çəməndən, Həsrətin üzünə baxıb gələcəm.

Gələcək baharda yenə gələcəm.

**Bir gün çıxıb gedəsən**

Bir gün çıxıb gedəsən, Bu şəhərin səsindən.

Gedəsən uzaqlara… Nə maşın səsi gələ, nə də ki uğultusu…

Səninçün həyat ola

Bir də bir içim su...

Gedəsən yavaş-yavaş Səni yollar apara. Tək yollar duya səni, Səni qəmdən qopara.

Bir gün çıxıb gedəsən… Bu şəhərin özündən. Saxta yalandan gülən,

İnsanların üzündən.

Uzaq yerə gedəsən… Bilməyələr izini.

Unudasan hər kəsi,

Tək tapasan özünü.

Heç geriyə baxmadan.

Bir gün çıxıb gedəsən… Getmək nə çətin imiş…

Bəlkə də asan imiş…

Bir gün çıxıb gedəsən… Heç bir kəsə demədən. Sakit, səssiz-səmirsiz,
Bir gün çıxıb gedəsən,
Ayrılığın dadını,
Hər kəsə bildirəsən…

**Səni unutmalıyam**

Həsrətlə gözlədim, bu axşam yenə, Sanki otağımda səsin, nəfəsin.
Mən səni unutmaq istədim, ancaq, Sağalmaz yarasan, ürəyimdəsən.

Şəhər də, ruhum da sükut içində
Sənsiz bir qəribdir, bu payız, bu yaz.
Getdin xəyallarım sirdaşım oldu,
Dönsən də həsrəti unutsaq bir az.

Üşüyən sevgimin üstünü örtüb
Gecələr röyama şam tutmalıyam
Bu dəli həsrətə son qoymaq üçün,
Mən səni əbədi unutmalıyam.

**Yaşamaq istərsən dəlicəsinə…**

Yaşadığın bir gün ömrə dəyərsə
Bir günlə həyatın əgər dönərsə...
Taleyin üzünə nə vaxtsa gülüb,
Xəyyalların sənə qonaq gələrsə.
Yaşamaq istərsən dəlicəsinə…

Kədərin əlindən inciyib, küsüb, Arzuna nə vaxtsa çata bilərsən..
Qaçıb arzuların şirin üzünə,
Onun əllərindən tuta bilərsən.
Yaşamaq istərsən dəlicəsinə…

Bəzən lal olarsan, bəzən susarsan,
Bəzən ümman kimi dolub daşarsan.
Ürəyin darıxar, ruhun sıxılar,
Bəzən dəniz kimi elə coşarsan…
Yaşamaq istərsən dəlicəsinə…

Bir ömür əbədi xəyal qurarsan, Üzü çiçəkləyər ayrılıqların.
Acı gülüşlərin yolları üstə,
Yağarsan yağış tək, sən narın-narın.
Yaşamaq istərsən dəlicəsinə…

**Sənə getməyən yollar…**

Sənə getməyən yolları Getməyəcəm daha mən...

Getsəm....

O yolların buz baxışı. O yolların soyuq nəfəsi Üşüdəcək ruhumu... Yollarımda əsən rüzgarlar Dəyişəcək yolumu...

Payız rəngimin pıçıltıları

Qollarını açaraq

Məni tənhalığa sürüyəcək...

Bozaran yuxularımın gecəsinə bürüyəcək.. Zamanın tellərini darayan ayrılıqlar,

Son ümidini yaşayacaq....

Ömrümü qədəh-qədəh içib

Həsrətimi gözləyən yollar....

Yorğun gözlərini yumub

Daş bağlamış qollarını Sinəsində çarpazlayan

yollar....

Eh....yollar..yollar...

O yollar sənə getməyirsə, getməyəcəm daha..

Sabahların qərib gözlərində bitməyəcəm daha.

Ulduzların utancaq

baxışlarında

Ərimək istəyirəm..

Köksümdəki saat əqrəblərini

Sənə gələn yolların Tənha işığında dayandırıb, Geri dönmək istəyirəm..

O yollar sənə getməyirsə...
Getməyəcəm...
Ayaqlarımın kar olmuş səsiyəm...
Gümüşlənən tellərimi
Sığallayan həsrətin gecəsiyəm…
Bu yollar sənə getməyirsə Getməyəcəm....
Getməyəcəm…

**Boşuna ümidlər verməyin...**

Boşuna ümidlər verməyin nolar,
Boşuna ümidlər saralıb, solar.
Bəlkə də bir ömrün sonucu olar,  Bəlkə də bir ömür yarımçıq qalar.

Oynamayın bəxtin bəd naxışıyla,  Qırmayın ümidlər göyərən yeri.
Aldadıb, aldanan ömür payından,
Başlanır taleyin acı yelləri.

Yox deyin həyatın sərt baxışına,
Arayın, axtarın xoş anlarını. Düşməyin dünyanın naxoş vaxtına,
Dərin bu dünyanın xoş nübarını.

Sədaqət, etibar, inam axtarın,

Yazılan bir ömrü bada verməyin.
Yaxşılıq toxumun elə səpin ki,
Taleyin hökmünə siz baş əyməyin.

Xuramanam, haqqın yolçusuyam mən, Siz haqqı güdaza verməyin heç vaxt...
Könül bağınızda güllər bəsləyin,
Özgənin bağından dərməyin heç vaxt...

**Kimsəyə söyləyəməm**

Bir atəş var ürəyimdə,
Yandırır məni, deyəməm.
Bir sevda ağlar içimdə, Kimsəyə söyləyəməm.

Kimsə var həyatımda,
Mən onlardan keçəməm.
Bu eşq ömürlük sirrim Kimsəyə söyləyəməm.

Bu eşqim həyatımda Bir ömürlük bitəcək.
Sevdamı hec bir zaman Bir kimsə bilməyəcək.

Nə qədər yandırsa da, Mən onu bəsləyəcəm. Məndən küsüb getsə də, Mən onu səsləyəcəm.

Kaş ki, həsrət əlinə
Bu saf eşqim düşməsin.
Amandı  sevdamıza Hicran mehi əsməsin.

**Sən yox kimisən...**

Dünyamın öz varı, öz baxışı var,
Bu varlıq içində sən yox kimisən.
Mən sənin dünyandan çoxdan getmişəm,
Bəs niyə çıxmırsan ağlımdan heç sən...

Ehh..nədən danışım bu var içində,  Gizlənib, görünən kölğə kimisən.
Uçub xəyalların qol qanadında, İtən  ümidlərə bəlkə kimisən.

Günahmı yuyursan yağan yağmurda, Bu payız, yağışlar  nədən bitməyir.
Səbri daralıbdı hər keçən günün,
O qədər yaxınsan, əlim yetməyir…

Xatirə selinə dönüb gümanım,
İçimdə sən adlı bir mənim yaşar. Nədən xəyalımdan çıxmırsan bir an,
Yol salıb qəlbimə sənli  yoxuşlar.

Azıram dumanlı fikir köçündə,
Nə ağlımda yaşa, nə yuxuma gəl.
Arabir darıxsan uçub xəyal tək,
Qonaq ol ömrümə, gəl, darıxma gəl...

**Darıxmaq…**
Darıxmağın rəngi olmur, əzizim.
Darıxmaq şeh tutan gülə bənzəyir.
Yandırar qəlbini gözə görünməz.
Ocağında sönmüş külə bənzəyir.
İnsana ayrılmaz bir yoldaş olar,
Sığınar dərdinlə bir sirdaş olar,
Darıxmaq qəlbində dərin iz salar.
Tufanla sovrulan yelə bənzəyir.
Çox dayaz görsənər, amma dərindi,
Həsrəti ömürlük qəlbdə yerindi,
Üşüyər hər zaman, yeri sərindi,
Darıxmaq bir çaya, gölə bənzəyir.
Yaralar adamı öz can evindən,
Əridər, məhv edər, saça salar dən, Susarsan, ürəyin dolar kədərdən.
Darıxmaq lal olmuş dilə bənzəyir.
Eyləyər qəlbini lap oyuq-oyuq,
Hərdən qaynar olar, hərdən də soyuq,
Eyləməz özünü heç nəyə layiq
Darıxmaq, səhraya, çölə bənzəyir.

**Kipriklərimin yaddaşında qalıb sevdalı baxışın....**

Səninlə aramda
Bir körpü var, adı ürəkdi.
Keçmək istəyirəm..
Ancaq addım ata bilmirəm. Əzərəm deyə...
Sonra tikanların çoxluğundan Ilişib qaldım...
Ümidlərim qanadı...
***
Gecə yaman uzandı… Bu gecə sənsizliyin güzgüsünə boylandım.
Sığalının boz rəngində tumarlandım.
Darıxmağın şəklini çəkdim...
Gecə yaman uzandı...
Narın yağış yağmağa başladı.
Xatirəmin göz yaşları bilib Seyr etdim yağışı.
İçimə çəkdim bu soyuq baxışı..
Saralmış varaqların arasında üşüdüm Payıq yarpağı tək titrədim, əsdim...
Burulğana dönüb, sənə tələsdim

Donmuş nəfəsimlə rəngli gülüşlərimin yolunu kəsdim...

Gecə yaman uzandı...

***

Sevgimin gözlərində bir ümid əkdim göyərmədi...

Ağ tellərini qara rəngə boyadım sevinmədi...

Kölgə kimi izlədim ömrümün

Qaranlıq yollarını... Ömür də dalğa boydaymış Sahilə çırpıldı, yox oldu... Başımı söykədim xəyallarımın göz yaşına...

Ürəyimdən bir sevgi düşdü...

***

Yollar tənha, ümidlər tənha

Qalmışam yol ayrıcında. Qaranlıqlar üstümə gəldikcə

Çırpılıram sabahlara..

Tənhalığın əlindən tutub

Ayağımı əzən daşların

Üzəriylə yeriyirəm

Uşaq kimi ağlayıb kiriyirəm...

Sahili döyəcləyən ləpələrə dönüb uzaqlaşıram tənhalığım kimi

Xatirəyə dönürəm

Lap uşaqlığım kimi...

***

Taleyin üzqarasıdır,

Çəkdiyim dərd naxışları..
Susuzluqdan quruyan
Dodaqlar kimi
Cadar cadardı...
Bəxtimin ormanında
          gül-çüçək  əkdim.
Baxdım ki, hər tərəf qardı...

***

Təbiətin yarpaq tökümü...
Payız rəngində çiçəklər.
Torpaq rəngində gülüşlər
Kəsilən ağacların göz yaşı kimi.
Fəsillərn savaşı...
Ömrün illərinin dərd yağışı...
Qocalıram...

***

Fırçanın gözəlliyində
                əks olunur dalğalar..
Sahilin qucağında
                    pıçıldaşır ləpələr...
Qağayıların nəğməsi
                    sulara düşür.
Rəssamın xəyalları dənizlə
                          Öpüşür...

***

Sevgi qəlbin açarıdır Ürək sevginin evi...
Məhəbbətim bal dadır
Hicranın bağında...
Kədərim asılı qalıb İntiharın budağında...

***

Kipriklərimin yaddaşında qalıb sevdalı baxışın.
Qatarın gedişində qarşılayır mənı həsrətin.
Bir sevgi inildəyir relslərin arasında
Qucaq-qucaq tüstülənir ürəyimin başında...
Boğur məni gözlərinin qarasında...
Ümidlərim intihardadı...

***

Ümidimin əlləri
boş qayıdıb.
Ayrılığın qanlı əlləri
Ürəyimin qapısını döyür.
Çırpınıram yağışın altında...
Ruhumun göz yaşları Qanad açır göndərdiyin məktubların kimi... Üzümə durur yazdığım sözlər...

**Sevimli adın gedəcək**

***Mənsur şeir***

Bir gün gələcək, dərdinlə, sıxıntılarla gedəcəksən.

İllərlə qurduğun evini-eşiyini, doğmalarını tərk edəcəksən.

Öləcəyəm deyə çox fikir çəkmə, həyacanlanma.

Öldüyün an sənin vücudun refleks olacaq.

Kəsiləcək nəfəsin, gözlərin açıq qalacaq.

Nə olacaq, necə olacaq, deyə heç üzülmə.

Çünki, sən öləndə nə lazımsa edəcəklər.

İlk öncə sənin paltarlarını çıxaracaqlar.

Sonra səni yuyacaqlar, qüsül edəcəklər.

Yeni paltarını, kəfənini əyninə geydirəcəklər.

Yaxından, uzaqdan eşidib gələcəklər.

Cənazə haradadır, deyəcəklər.

Adınla səni heç kəs çağırmayacaq, öldüyün an səni ilk adın tərk edəcək.

Cəsədin olacaq ortada.

Sənə "meyit" deyiləcək.

Adınla səni heç kəs çağırmayacaq.

Deyəcəklər tələsin, meyit qalmasın sabaha.

Bir gecə də səni evində qonaq saxlamayacaqlar.

Gecəni ağlamaqda günahdı deyib, ağlamayacaqlar...

Deyəcəklər tez çatdıraq məzarlığa...

Sonra səni çiyinlərində götürəcəklər.

Qolları yoruldu deyə, bir-birinə ötürəcəklər.

Nəhayət, səni son mənzilə yetirəcəklər.

Tez dəfn edək, geri dönək, şər qarışır deyəcəklər.

Hamı çəkilib gedəcək, hamı səni tərk edəcək.

Dönəcəklər mənzilinə, hərə bir söz söyləyəcək.

Kim yeməsə ehsanından ruh inciyər, deyəcəklər.

O yazığın taleyi də belə imiş, onunku da bu qədərmiş, deyib, - oturub halvanı da yeyəcəklər.

Üstündən bir limonlu çay da içəcəklər...

Sonra hər kəs çəkilib öz evinə gedəcək.

Bir neçə gün keçəcək...

Doğmaların, övladların yığışacaq,

Ondan kimə nə qaldı, deyəcəklər. Əvvəl pıçıltıyla gizli-gizli kiminə çox, kiminə az mirasını böləcəklər.

Payına az düşənlər narazılıq edəcək.

Bizi heç düşünməmiş, kimə nə qaldı deyəcək.

Sonra paltarlarını, əşyalarını seçib ayıracaqlar.

Kimə isə sədəqə verək deyə, onu da paylayacaqlar.

Beləcə aylar keçəcək, günlər keçəcək...

Bil ki, sən öldükdən sonra işini-gücünü buraxıb Sənin həsrətini heç kəs çəkməyəcək.

Nə də həyatını tərk edib səninlə ölməyəcək.

İşləri də, həyatları da hər zamankı kimi davam edəcək.

Qalan malın da, mülkün də doğmaların arasında bölünəcək.

Bir gün gələcək sən öləcəksən.

Şanın-şöhrətin hamısı dünyada qalacaq.

İlk əlindən alınan sevimli adın olacaq.

Bir gün gələcək, hamı səni tərk edəcək.

Tərk edənlərin önündə də, sevimli adın gedəcək.

Sevimli adın gedəcək...

**Dönmədi geri...**

Çox həsrətlə gözlədim,
Ötən illərimi mən.
Yollar da  çox gözlətdi,
Geri heç nə vermədən.

Hər ilin bahar, yazı,
Ömrümə gül ələdi.
Hər ayıma, günümə
Xoş arzular dilədi.

İndi o illərimin
Həsrətli yolçusuyam.
Geri dönməyən ömrün
Hər zaman acısıyam.

Şirin xatirələrin
Uzaq oldu əlləri.
Nə qədər səsləsəm də,
Yenə dönmədi geri...

Ötdü gənclik illərin
Ötdü, xoş arzuları.
Bu arzularla dolu
Getdi ömrün qatarı.

**Allahım bağışla məni…**

Əzabından əhvinə sığındığım,
Qəzəbindən sevginə sığındığım,
Səndən yenə, ey sənə sığındığım,
Qapına gəlmişəm, bağışla məni.

Lütfinlə könlümü hidayət  eylə,
Ədalət yolumu həqiqət eylə,
Günahım çoxdursa mərhəmət eylə,
Qapına gəlmişəm bağışla məni.

Sən haqsan, mən sənə gələn bir yolam,
Sevgindən açılan qanadam, qolam
Sənə itaətkar bəndənəm, qulam,
Qapına gəlmişəm bağışla məni.

Açdım dərgahına xoş əllərimi,
Allahım, qaytarma boş əllərimi,
Götürüb arzumu, diləklərimi
Qapına gəlmişəm bağışla məni.

Ey Rəbbim, rəhm elə məğfirətinlə,
Mən Sənə bağlıyam sədaqətimlə,
Sən ümid yerimsən, saf niyyətimlə,
Qapına gəlmişəm bağışla məni.

## OĞLUM

**Oğlumun saçlarında ağlar gördüm çox təsirləndim!**

Saçının ağları dəyir gözümə,
Gözləri gözümdən rəng alan oğlum.
Bahar nəfəsiylə meh kimi əsib,
Ruhuma, könlümə hey dolan oğlum.

Gözümdə böyüdü saçındakı ağ,
Ruhumun ərköyün uşaqlığı tək.
Bəlkə illərimin həsrəti kimi,
Gizlicə izləyib səni  kölğətək.

Ana əllərinin isti tumarı
O ağ tellərinə məhəbbət çəkib.
İllərin dərd verən qəmli əlləri
Qara tellərinə ağ həsrət çəkib.

Günəş şəfəqidir saçlarında dən,
Təbiət rəngidir, qəm yemə oğlum.
Allahın verdiyi bir ucalıqdı
Çalış ucalıqdan sən enmə oğlum.

**Mən Sevgi Şairiyəm!!!**

Mən sevgi şairiyəm,
Duam Allah ətəyi.
Sözlərim dan ulduzu,
Şeirim xəyal gerçəyi...

Sevgimin Kəbəsinə,
Söykəmişəm başımı.
Sevgimlə yaz etmişəm,
Payızımı,qışımı.

Ruhumun rəngindədir,
Sevgimin naxışları.
Qoy küsüb, inciməsin.
O məsum baxışları.

Mən sevgi şairiyəm,
Mənə sevgidən danış.
Bu sevdalı yollarda,
Bizi tutmasın yağış...

**Ana dilim**

Ən böyük şah əsərimsən,
Varlığımsan, gərəyimsən,
Nə yaxşı ki, sən mənimsən,
Ana dilim, doğma dilim!

Tariximin öz adısan,
Həyatın şirin dadısan,
Ruhumun sönməz odusan,
Ana dilim, doğma dilim!

Ömrümün söz yağışı sən,
Hər sözümün naxışı sən,
Bu dünyamın baxışı sən,
Ana dilim, doğma dilim!

## Ölümdən qorxmayın

Həyat başdan-başa əfsanə, nağıl,
Həyat bir fəlsəfə, İnsanlıq demək.
Gözlə görünməyən yaxşılıqları,
Hər zaman anlayıb, duyasan gərək.

Sığınıb Allaha, haqq ədalətə,
Həqiqət adına yol gedin hər an.
Büdrəməz həyatda, əyilməz heç vaxt.
İnsanlıq adını ucaldan insan.

Yaşaya bilərsiz hakim, şah kimi,
Öləndə insan tək ölməlisiniz.
Ölümdən qorxmayın, ondan qorxun ki,
Yaşarkən ölərsiz ürəklərdə siz.

**Bu bahar sevgimiz xəzana döndü**

Bu bahar sevgimiz xəzana döndü
Hicran küləkləri əsdi arada.
Tutdu yolumuzu leysan yağışlar,
Olan ümidləri kəsdi arada.

Sevda yolumuzu aldı duman, çən,
Bir eşqin qış adlı seyrinə durdum.
Saldı sevdamızı ayrılıqlara
Sənin inadınla, mənim qürurum.

Həsrət nəfəsinə soyudu könül,
Bu bahar durnalar dönmədi geri...
Tutaq ayrılığın çiçək əlindən,
Göyərsin bu eşqin yaz diləkləri..

Məhəbbət dilədim xoş xəyallardan,
Könlümü isitdi şirin nağıllar.
Bənövşə ətirli yaz yağışları

Həsrət ürəyimin qəmin sığallar.

Bu bahar sevgimiz xəzana döndü,
Gümanlar baş alıb getdi payıza.
Sükuta qərq olan gecələr kimi,
Çətin ki, sevgimiz dönəcək yaza...

**Sevmişdim səni...**

Daha səndən bir də bəhs etməyəcəm,
Köhnə rəsmlərdə, səhifələrdə qal.
Mən hüzur haqq etdim, sən hüzün verdin,
Gecikmiş sevgini indi geri al...

Dünyanın nur saçan şəfəqi kimi,
Mən haqqın özü tək görmüşdüm səni...
Haqqın-ədalətin aşiqi bilib,
Gerçəyin özü tək sevmişdim səni!..

Sənə gözlərimdə bir bağ salmışdım,
O bağın gülləri quruyub açmaz.
Sevgimiz bənzərdi coşan çaylara,
Daha o çaylar da quruyub, axmaz...

Hər açan çiçək də, hər açan gül də,
Son baharda xəzan olub  solarmış.

Bəzən coşğu ilə gələn sevginin,
Sakit  pıçıltılı sonu olarmış...

**Yenə sən vardın**

Ağlımda sən vardın yenə bu səhər,
Yenə pəncərəmi döydü rüzigar.
Uzaqdan hay salan qağaylar tək,
Səndən danışırdı mavi dalğalar...

Sahili döydükcə çılğın ləpələr,
Xəyalım buluda salam deyirdi.
Yenə dəniz xatırladırdı səni…
Yenə könlüm ancaq səndən deyirdi...

Zər geyib günəşin üfüqlərindən,
Sənli günlərimi ruhuma biçdi.
Oynadı gözümdə şıltaq ləpələr,
Sənli xatirələr könlümdən keçdi.

Sənsiz ürəyimi  sıxdı bu dəniz,
Uçdum xəyalınla çox uzaqlara.
Darıxdı bu sahil, darıxdı dəniz,
Qayıtdım bir anlıq ötən çağlara....

Dəniz gözlərimdə rəsmini çəkdim,

Məni həsrətiylə sıxdı son bahar.
Söykənib bəxtimin dəniz üzünə,
Məni sənsizliyə çəkdi dalğalar...

## Nəyimə lazımsan sən bundan belə

Daha ürəyimi ovutmur heç nə,
Daha yolumuza ayrılıq düşüb.
Qış kəsib ümidin boş qapısını,
Bu sevda yolunu yaman dəyişib,
Ayrılıq sözünü gətirdim dilə
Nəyimə lazımsan sən bundan belə.

Ümidlər yol aldı  gələn bahara,
Saldın bu sevdanı  çətinə, dara,
Xəyalım baş vurdu çox  uzaqlara,
Ruzigar yelləri verib əl-ələ
Nəyimə lazımsan sən bundan belə.

Son baharda soyuq ruzgarlar əsdi,
Əsən ruzgarlar da yolumu kəsdi,
Səndənmi incidi, məndənmi küsdü?
Baxıram saçımda ağaran telə,
Nəyimə lazımsan sən bundan belə.

Səni tez dəyişdi yollar, cığırlar,

Əllərini səndən üzdü o çağlar,
Həsrətin rəsmini çəkibdi dağlar,
Sənli xatirələr gəlsə də dilə,
Nəyimə lazımsan sən bundan belə.

**Ona yalan söylədim**

Ona yalan söylədim,
Səni sevmirəm deyə.
Özümü çox danladım,
Qəlbinə dəydim niyə?

Ona yalan söylədim,
Dedim, məndən uzaq ol.
Yuxumda gecələyən,
Bir həsrətli sazaq ol.

Dedim, get uzaqlara,
Gözüm səni görməsin.
Amma,dualar etdim
Ayağına daş dəyməsin...

Bu amansız sevgimə,
Qəlbimdə hökm verdim.
Ancaq ruhumla onu
Təkcə onu deyirdim.

Bəlkədə çox gözlədim,
Bir gün gələcək deyə.
Soyuq xatirəmizi
Mənlə böləcək deyə.

Dediyim yalanların
Ürəyini oxşadım.
Darıxan ümidləri,
Sevgimə bağışladım.

Mən onu gözləmirdim,
Bir gün gələcək deyə.
Mənsiz keçən illərin
Soyuq xatirəsini-
Mənlə böləcək deyə.

**Sən yoxsan…**
Sən yoxsan…
Hər şey sənə bənzəyir…
Bulud kimi dolub
Ağlayan gözlər,
Qaranlıq gecələr ,
Solğun gündüzlər,
Uzanıb gedən,cığırlar,izlər…

Hər şey sənə bənzəyir…

Sən yoxsan…
İnciyən,küskün baxışlar,
Pəncərəmi döyən narın yağışlar,
Yorğun arğın əsən dəli küləklər,
Gözü yolda qalan tənha çiçəklər…
Sənə bənzəyir…

Sən yoxsan…
Həzin nəğməsiylə tökülən yarpaqlar,
Üşüyən ağaclar , donan torpaqlar,
Qaranlıq hər gecə,aydınlıq səhər,
Tükənən ümidlər,solan diləklər…
Kim bilir daha nələr,nələr…
Sənə bənzəyir…

Sən yoxsan…
Saçlarıma ağlar salan qorxular,
Dəniz kimi qabaran hırçın duyğular,
Kiçik bir qızılgülün
Xoş ətirli qoxusu
Kiprilərimə kədər asan təklik yuxusu…
Sənə bənzəyir…

Sən yoxsan…
Doğan günəş, batan ay

Coşqun dəniz,axan çay…
Haraya baxıramsa,
Səndən mənə bir nişan,
Gözlərimin önündə,
Pərdə pərdə bir röya
Heç bilmirəm bu dünya
Nədən sənə bənzəyir?
Nədən sənə bənzəyir?

**Payız yağışları**

Yenə ruhum sıxılır.
Yenə hava tutulub,
Yenə buludlar yığışıb...
Yenə də boz-bulanıq göylərin
başı yağışa qarışıb.
Narın-narın yağmağa başlayır,
payız yağışları...
Meşələri qəmli,
Ağacların gözü nəmli,
Yarpaqlar gözlərinin qorasını sıxır,
Damla-damla göz yaşları
süzülür torpağa,
Pıçıltılı duyğular dilə gəlir
Yağa-yağa...
Göz yaşlarında xəzan evi qurulur,

Yağış kimi tökülür yarpaqlar...
Yağış yağır, yarpaq yağışı...
Donunu dəyişir meşələr, ağaclar,
Soyuq yağışlara hazırlaşır...
Ayrılıqlar bir-birinə qarışır...
Payız baxmır ağacların titrəməsinə,
Yayın istisindən susamış torpaq
Payız yağışlarına acımış kimi
canına çəkir yağışları
İnsanın ruhuna təpər verir,
Payızın gülən baxışları...
Durna dəstələri bu yağışda
qatarlanıb dəstə vurur,
İsti ölkələrə uçur...
Şeirlərin doğum fəslidir payız,
Duyğular qanad açır,
Hisslər coşur ayrılıqların
Həsrət tanqosunu oynamağa tələsir...
Payız yağışları...
ömrün, illərin yağışı...

## Payız gəlir

Bir sevgi həsrətiylə
Soyuq mərhəmətiylə
Kiməsə sevgisiylə

Kiməsə nifrəyiylə…

Asta-asta yerişiylə
Payız gəlir...
Yağışla, çiskinlə yüklənmiş
Lay-lay buludlar,
Qəflətən qılıncını çəkib,
Nərildəyən şimşəklər
Meşələri, çölləri
boş qoyub gedən quşlar
Torpaqdan doymayan yağışlar...
Payız gəlir...
Meşələrin yaraşığı, gözətçisi
Ağaclar fikrə gedir...
Fikirdən yarpaqlara xal düşür.
Zəifləyir, saralır...
Zəiflədikcə gücdən düşür.
Gücdən düşən yarpaqları
küləklər üzüb yerə səpələyir.
Ayrılıqlar dilə gəlir,
Payız gəlir...
Hələ gəncliyimdən
Sirli-soraqlı görünən payız..
Qızılı paltarına bürünür,
Sanki nazlı-qəmzəli
Təzə gəlin kimi görünür,
Bu libasda ərköyün,  bir az çılğın,
bir az kövrək görünür..

Şairlərin çox sevdiyi payız
Yuxuya getmək istəyən
düşüncələrini oyadır,
Sevib-sevilmək üçün gözəl aydır.
Payız ovqatlı arzular isinməyə başlayır,
Sərinlik istəyən ürəklər üşüməyə başlayır.
Payız gəlir...

**Düşüncələr...**

Yaşadığımı sanırdım…!
Bir səhər günəşin doğuşunu seyr etdiyimdə,
xəyalımdakı yaşamadıqlarım çox şeylər gəldi ağlıma…
Darıxdıqlarım,
Xəyallarım,
Düşüncələrim,
Gözlədiklərim…
Yarım qalan arzularım…
Və daha nələrim… nələrim…
Bəlkədə heç başlamadan bitənlərim...

**POEMA**

**Nəbi və Həcər dastanı**

Qarabağ torpağının dağ Qubadlı elində,
Oğul dünyaya gəlir, bir nağılın dilində.
Adını Nəbi qoyub, tez böyüsün deyirlər.
Nəbi tək igid olsun, - xeyir-dua verirlər.
Günəş doğur bu zaman, Ay bədirlənir bu an,
Sabahın zülmətində saçlarını sökür dan.
Nəbi adı igidlik, ərənlik nişanəsi,
Yayılmışdı hər yana onun məğrurluq səsi.
El-obası sevinir Nəbinin gəlişinə,
Bir qurban da kəsirlər onun hər gülüşünə. Bu vaxt onunla birgə kənddə bir qız doğulur, Bu qaragöz qızın da adı Həcər qoyulur.
Biri kəndin o başı, biri kəndin bu başı,
Onlar bir yaşıd kimi olur sinif yoldaşı. Məktəbə bir gedirlər, bir yerdə oxuyurlar, Elmin gözəlliyini bir yerdə qoxuyurlar.
Hər ikisi əlaçı, nümunəvi şagird tək,
Sevilirlər məktəbdə əlaçı, doğma dost tək.
Böyüyürlər sevnclə, hər kəs sevir onları,
Sevir vətənə bu cür şərəf verən canları.
Nəbi arabir gəlir dərs üçün Həcərgilə,
Həcər də bu adəti yaşadır eyni ilə.
Nəbiyə doğmaları tez-tez zarafat edir,
“Gözün aydın ay Nəbi, yenə Həcərin gəlir”.
Həcərə də doğmalar sataşırlar arabir,
“Dur qarşıla ay Həcər, sevimli Nəbin gəlir”.
Heç birisi incimir doğmaların sözündən, Sevinir ürəkləri, sevnc axır gözündən.

Belə zarafatlara alışır hər ikisi,
Həm məktəbin, həm elin olurlar sevimlisi.
Bir partada əyləşib, birgə yaşa dolurlar,
Özləri də bilmədən çox yaxın dost olurlar.
Öyrəşir bir-birinə, qəlbi bir, sözləri bir,
Vuran ürəkləriylə, cüt baxan gözləri bir.

Vaxt ötür, zaman keçir bu doğmalıq içində, Pərvaz edirlər birgə, arzuların köçündə. Hər iki dəyərli gənc çatırlar gənc çağına, Səcdə edirlər hər an vətənin torpağına.

Gəncliyin bulağından birlikdə su içirlər,
Sevgi adlı dünyanın körpüsündən keçirlər.
Yaranır hər birinin qəlbində eşq yuvası,
Bu eşqə həmdəm olur doğmaların duası.

Vidalaşıb məktəblə, cütlük Bakıya gəlir, Ürəklərində arzu, istək göyə yüksəlir. Nəbi öz arzusuyla hərbi məktəbə gedir, Həcər isə həkimlik arzusuna tez yetir. Dünyanın xoşbəxti tək sevinir hər ikisi, Dilə gəlir könüldə qurduqları sevgisi.

Nəbi ilə Həcərin qurulur toy mağarı,

Olurlar bir-birinin çox istəkli, tən yarı. Bu sevgidən dünyaya gəlir bir oğul, br qız,

Onlara bu doğmalıq şərəf gətirir yalnız.
Oğula Nəbi adı, qıza Həcər adını,
Qoyaraq yaşadırlar bu eşqin saf andını.
*Xalqımızın çox gözəl adət-ənənəsi var,*
*Qəhrəman oğullara igid tək baxır onlar.*
*Keçdiyi yollarını dastana döndərirlər,*
*Onlardan sevə-sevə hər an söhbət edirlər.*

*Bu sevgidən yaranıb "Koroğlu", "Qaçaq Nəbi", Gələcək nəsillərə ötürüblər birbəbir. Bu xalq unuda bilməz "Dədə Qorqud" soyunu, Bu soy üstdə tanıyıb xalq qəhrəman oğlunu.*

*Xalqın sevgisi böyük  igid oğullarına, Ehtiramla yad edib, ehtiyac duyub buna.*

*Tarixin yaddaşıdı belə  igidlərimiz,*

*Onları biz fəxrlə sevmişik hər birimiz. Şah İsmayıl Xətai, Babək kimi qəhrəman,*

*Bu xalqın ürəyində yaşayacaqdı hər an!*

***

Bürüyür hər bir yanı, bu zaman qara xəbər,  Yenə düşmən hiyləsi, yenə də müharibə.

Erməni vandalları Qarabaği istəyir,

Rus şovinist dostundan yenə kömək diləyir.

"Böyük bir Ermənistan" yaratmaqdır niyyəti, Gedir İki əsirdi antitürk siyasəti.

*Min doqquz yüz doxsanın iyirmi yanvar günü, Tarixin qan yaddaşı, millətin ağlar günü.*

*Millət ayağa qalxıb gec də olsa oyanmış, Azadlığın yolunda ölümüylə dayanmış.*

*Gözündə qoymaq üçün bu azadlıq arzusun*

*Xalqımın qanın tökdü keçmiş Sovet Ordusu,*

*Xüsusi qəddarlıqla amansızlıq edərək, Xalqımın üzərinə tankları yeridərək.*

*Qana boyadı xalqı, doğma əziz Bakını,*

*Heç kəsə rəhm etmədən əzib tökdü qanını.*

*Əliyalın xalqımın üstündən tanklar keçdi,*

*Xalqım qorxmadı ancaq azadlığını seçdi.*

*Hər yanda yaralılar, var insan cəsədləri*

*Milyon-milyon insanın yarılmışdı sədləri.*

*Yenə də imperiya türk qanına susamış,*

*Bu xalqın qeyrətini ayaqlar altda almış. Lakin xalqın birliyi güc gəlmişdi onlara, Yox demiş əsarətə, yox demiş istismara.*

Yox dedi imperiyanın çirkin əməlinə xalq- Bu arzunun önündə durdu həqiqətlə haqq.

Xalq, qanı bahasına azadlığına çatdı,

Mənfur rus imperiyanın arzusuna daş atdı.

*Yetmiş illik buxovun qırıldı zəncirləri,*

*Bəlli oldu hər kəsə rus xalqın əməlləri.*

*Müdrik xalqım axır ki, öz haqqını düz andı Müstəqillik adını ölümüylə qazandı.* Çirkin əməllərindən doymayan rus millətin-

Türklərə ölüm eşqi oldu yalnız xisləti.

İşğalçılıq edərək birləşib erməniylə,

Qarabağı zəbt edir min cürə hiyləsiylə.

Yenidən Qarabağa dişlərini qıcıyır,

Neçə illik Qarabağ həsrətinə acıyır. Bu mənfur niyyətindən çəkilməyən erməni,

Qarabağı özünə sayır doğma vətəni. Güllələnir hər yerdə bu yerin vətəndaşı,

Başlayır Qarabağda ölüm-dirim savaşı.

Vətənin oğulları qalxır ayağa bu an,

Dilində şüar olur - "Qarabağ Azərbaycan!". Yurdundan-yuvasından didərgin düşür ellər,

Qaçqın-köçkün adında qana dönür könüllər.

*Silahlanır erməni rusların köməyiylə,*

*Azğınlaşır yenə də şovinist hiyləsiylə. Türk qanından doymayan rus-erməni xisləti, Çirkin əmllərindən çəkilməyirlər qəti.*

*Tək qalır Azərbaycan, ürəyi qanla dolur.*

*Yenə də parçalanır, yenə də işğal olur.*

*Vaxtilə imzalanmış "Türkmənçay" , "Gülüstan"ı, Neçə yerə bölmüşdür Bütöv Azərbaycanı.*

*Parçaladı bu imza tarixi torpaqları,*

*Qorudu vətənimə düşmən havadarları.*

*Ürəyi iki yerə böldülər bir gecədə,*

*Qəssab tək qan içməkdən doymadılar necə də.*

*Beləcə zülm etdilər Azərbaycan türkünə, Təkcə Araz ağladı vətənin bu gününə.*

*Sonra da başladılar köçürülmə işinə,*

*Yavaş-yavaş vətəni hey çəkdilər dişinə.*

*Tarixi ərazilərə kütləvi köç başladı,*

*Bu köçlər vətənimin ürəyini daşladı. Köçürülüdü erməni İrandan Naxçıvana,*

*Qarabağa, sonra da, o qədim İrəvana. Mənfur düşmənin kökü o zamandan qoyuldu, Bununla da vətənin gözü hər an oyuldu.*

*Düşmən yer eylədikcə vətənimdə özünə,*

*Türkə düşmən kəsildi dağ basdılar gözünə. Qırdılar, məhv etdilər, Azərbaycan türkünü*

*Dədə-baba yurdundan çıxartdılar köçünü.*

*Bu köç davam edildi 20-dən 65-ə,*

*Stalinzm dövründən qol qoyuldu bu işə.*

*İlan mələyən yerlər, Kür-Araz ovalığı,*

*Çəkdi soydaşlarıma dağ üstündən bir dağı.*

*Oldu səksən səkkizdə son təmizləmə işi,*

*Ürəkləri dağladı zamanın bu gərdişi.*

*Bir nəfər türk qalmadı, doğma İrəvanımda,*

*Qaçqın-köçkün düşdülər öz doğma yurdlarından.*

*Dişlərini qıcadı şovinist İmperiya, Gəlmədi bircə kəs də vətənimçün haraya.*

*Azğınlaşmış vəhşi tək erməni quldurları, Saldılar çölə-düzə biçarə insanları. O quldur ermənilər baş kəsən cəllad kimi,*

*Oldu İrəvanımın, oldu qəddar hakimi.*

*Sonra da Qarabağa dişlərini qıcadı, "Bpyük Ermənistan" yaratmaqdı muradı,*

*Ancaq bu muradını kəm qoydu igirlərim,*

*Qarabağın uğrunda ayağa durdu ərlərim.*

***

Köçür Mingəçevirə Nəbi ailəsiylə,

Onlarla sağollaşıb qaydır müharibəyə.

Hərbiçi tək atılır o, könüllü döyüşə,

Düşmən lərzəyə gəlir, düşür yaman təşvişə. Nəbinin igidliyi gəzir dillərdən- dilə,

Cəsur komandir kimi tanınır o, tezliklə. Qəhrəmanlıq göstərib döyüşür bir neçə il, Əzir düşmənin başın, onları edir zəlil.

Döyüşlərin birində Nəbi qəhrəman kimi, Şəhidlik zirvəsinin olur igid hakimi.

Dəfn olunur Bakıda,

Şəhidlər Xiyabanında. Dəfn olunur onu sevən

Könüllər sultanında. Tez-tez Mingəçevirdən,

Uşaqları gəlirlər.

Nəbinin məzarını
Ziyarət eyləyirlər.
*Nəbinin gözlərində çağlayırdı buludlar,*
*Qisas almaqdan ötrü gərginləşdi o ki var.*
*Baxdıqca qəbirlərə ürəkləri dağlanır,*
*Düşmənə nifrət hissi qəlbində alovlanır. Gör neçə ana-bacı, qardaş-oğulsuz qalmış,*
*Neçə ailə başsız, ocaq sönüb qaralmış.*
*Gözləri yolda qalan neçə körpə atasız,*
*Neçə nişanlı oğul qaldı toysuz-mağarsız.*
*Kəsirdi bu ağrılar qəlbini bıçaq kimi, Nifrətindən yanırdı ürəyi ocaq kimi.*
*Düşmən önündə özün bir anda hiss eylədi,*
*"Bu qan yerdə qalmasın"- öz-özünə söylədi.*
*Nəbinin gözlərində qisas hissi yanırdı, Vətənə məhəbbəti içdən alıvlanırdı.*
*Baxdıqca atasının o məğrur baxışına,*
*Bacısının gözündən axan qəm yaığışına*
*Hərbiçi olmaq eşqi, cəbhəyə getmək eşqi,*
*Keçdi dərhal könlündən tezcə böyümək eşqi.*
*Baxdılar, seyr etdilər şəhidlərin qəbrini*
*Hər şəhidin qəbrindən asdılar öz səbrini.*
*Bu səbirin içində intiqam, qisas hissi,*
*Doğma torpaqlarının qışqırıq, haray səsi.*

***

Aradan illər keçir, böyüyür uşaqları,
Böyüyür onsuz qalan könül yaraşıqları.
Hər iki bacı-qardaş ali məktəbə gəlir,

Qəlbində arzu-dilək sanki göyə yüksəlir.
Nəbi hərbi sahəni, Həcər həkimlik seçir,
Çox yüksək balla onlar qəbuldan rahat keçir.
Nəbi hərbiyə gedir, canla-başla çalışır, Vətənə xidmətinə doğmalıqla alışır.
O, hərbi xitməni artıq başa vurmuşdu,
Vətənin keşiyində ləyaqətlə durmuşdu.
Onun əsgər qəlbində ata yurdun nisgili,
Gözündə uşaqlığın getməyən həsrət seli...
Parçalanmış ümidi, parçalanmış arzusu,
Həm şəhid atasının, həm torpağın qisası.
Narahat ürəyində bu əzab yaşayırdı,
Ağrını oğul kimi çiynində daşıyırdı. *Vətən müharibəsinin iğid oğullarının,*
*Atasıyla bərabər anırdı adlarını.*
*"Öncə Vətəndir" deyib döyüşən qəhrəmanlar,*
*Şəhidlik zirvəsinə şərəflə ucalanlar*
*Məqsədləri vətəndir, torpaqdır, həm anadır!*
*Bu vətən bir yanadır, onlar da bir yanadır.*
*"Ürəyimcə almasam qisasımı düşməndən,*
*Bağışlamaz heç məni nə anam, nə də vətən.*
*İşğal altında olan vətən torpaqlarının,*
*Lalə meşələrin, boynu bükük dağların*
*Harayını eşidib dözə bilmirəm daha, Gedəcəm düşmən üstə, ümidim tək Allaha."*
*Bu sözləri söyləmiş əfsanəvi qəhrəman,*
*Adı dillər əzbəri, igid Mübariz oğlan.*
*O gecənin yarısı tərk edərək hissəni,*

*Var gücüylə susdurur erməni qüvvəsini.*

*Şığıyır ildırım tək düşmən üstünə bir an, Minalı sərhədləri keçir o dayanmadan. Gözlərində dondurur vaxtı da, zamanı da Vaxtını fövqə vermir, ötürmür bir anı da.*

*Biçir, türkün qanına susayan ermənini,*

*Doğma torpaqlarımda ulayan ermənini.*

*Ölümün gözlərinə dik baxan Mübarizim,*

*Qəhrəmanlıq simvolum, ərən, igidlik rəmzim.*

*Göstərir düşmənlərə kimin kim olduğunu,*

*Bu torpaqda şir kimi oğul doğulduğunu. Qorxu içində qalan düşmən bir anlıq çaşır,*

*Ağzında dili təpir, ayaqları dolaşır.*

*Bir anlıq sanırlar ki, qoşun gəlib üstünə,*

*Baxaraq hər tərəfə görürlər ki, qoşun nə?*

*Tək bircə türk əsgəri onları qırıb töküb,*

*Darmadağın etdiyi hərbi hissə tam çöküb. Belə bir cəsarətə düşmən tamam mat qalır, Qarşındakı əsgəri tək görəndə sarsılır.*

*Onlar türk əsgərinin kim olduğun anaraq,*

*Bu zülümə hönkürüb için-için yanaraq*

*Çökdülər dizi üstə bu heyrətin içində Əridilər vətənə sədaqətin içində.*

*Mübariz İbrahimov igidliyin örnəyi, Onun vətən sevgisi qüruru, ölməzliyi.*

*Yayıldı vətənimdə, bütün türk dünyasında, Mübarizlik məktəbi yaşandı hər yaşında.*

*Rembo adı verildi bu məğrur igidimə, Cəsurluq abidəsi ucaldı şəhidimə.*

*Gələcək nəsillərə Mübariz ünvan oldu,*

*Tarixin yaddaşında böyük qəhrəman oldu.*
*Mübariz igidliyi Nəbini ruhlandırır,*
*Onunla fəxr edərək bu yola can yandırır.*
***

Nəbi yüksək rütbəli bir hərbiçi olmuşdu, Atası tək ucaboy, ətə-qana dolmuşdu.
Hər gün deyirdi kaş ki, müharibə başlaya,
Qarşımda tab gətirməz nə daş, nə də ki qaya.
Atılaram meydana, düşmənin nəfəsini, Kəsərəm o azğının İrəvanda səsini.
Alaram Qarabağın, Qubadlının haqqını,
Gedib Şuşaya qədər tökərəm düşmən qanın.
Rahat dura bilmirdi erməni qaniçənlər,
Susayıb qanımıza, bizi hər gün biçənlər.
Səhər-səhər yayılır hər yana qara xəbər, Tovuzu tutubdular atəşə ermənilər.
Əsgərlər arasında çoxlu yaralılar var,
Düşmənə cavab verib şəhid olur oğullar.
Bu anda bir xəbər də verildi xalqa birdən,
Hamı ayağa qalxdı, hayqırdı hamı yerdən.
Xalqın general oğlu Polad Həşimov şəhid, "Qanın yerdə qoymarıq ölməz belə bir igid".
Bütün ölkə qarışdı hamı Polad söylədi,
Ali Baş Komandana bizə əmr edin dedi.
*Polad, polad vüqarlı, çox dəmir iradəli,*
*Hərbi güc-savadıyla daim gedib irəli.*
*Vətənə olan sevgi, sevgiyə olan inam,*
*Poladı polad kimi yetişdirib bütöv, tam.*

*Sinəsin sipər edib Aprel döyüşlərində,*
*Qəhrəmanlıq var onun türk qanında, genində.*
*Əskər kimi sevilib, komandir tək ucaldı,*
*Əsl hərbiçi kimi general adın aldı.*
*Ucalqıca sadəlik oldu baş ucalığı,*
*Ucalara qaldırdı şanlı vətən bayrağın.*
*Erməni vandalları Tovuza can atanda,*
*Polad General kimi dayanmadı bir an da.*
*Layiqli cavab verdi dəstəsiylə düşmənə,*
*Canın qurban eylədi doğma əziz vətənə.*
*General şəhid kimi səs saldı bu adıyla, Vətənə sevgi verən azadlıq muradıyla.*
*Bu cəsarət hünəri xalqı oyatdı o gün,*
*Qoşuldu bütün gənclər dəstə boy atdı o gün.*
***
Müharibə istədi xalq ayağa duraraq,
Oğullar qisas dedi izdihamı yararaq.
Növbə ilə adları yazıldı siyahıya,
Hər kəs qoşuldu birgə bu müqəddəs haraya.
Hazır idi döyüşə Nəbi hərbiçi kimi,
Ürəkdən sevinirdi cəsur döyüşçü kimi.
Azad olacaq idi işğaldakı torpaqlar,
Neçə illik həsrətə son qoyacaqdı onlar.
Rütbəli zabit kimi, Xüsusi Təyinatlarda,
Nəbi təmkinli idi, hər yerdə, hər bir halda.
*Aprel döyüşlərinin igid, qəhrəman oğlu,*
*Qbudalının sevilib, cəsur tanınan oğlu,*

*Mais Barxudarov tək, igid General mayor, Vətən sevgisi əzəl gündən ona oldu yar.*

*Lələtəpə uğrunda gedən döyüşlərdə o,*

*Tank üstündə getmişdi birinici cərgədə o,*

*Əsgərlər generalın bu qorxmaz döyüşündən, İlham alırdı sanki tutduğu hər işindən.*

*Aprel döyüşlərinin rəhbərlərindən biri,*

*Vətən müharibəsinin mükəmməl komandiri, Əzəmət, vüqar hissi Hikmət Mirzəyevin də,*

*Dərindən kök salmışdı onun saf gözlərində*

*Adı xalqın qəlbində, Şuşa fatehi kimi,*

*Vətən eşqi ucaltdı, oldu xalqın hakimi.*

*Belə generalların Nəbi ilə görüşü,*

*Nəbiyə qanad verdi sevdirdi bu döyüşü.*

*Nəbinin hünərindən hər ikisi xəbərdar,*

*Ona döyüş yolunda eylədilər etibar*

*Beləliklə, Nəbi də Xüsusi təyinatlarda*

*Birləşərək döyüşə atıldı ağır anda.*

Sevinərək qabaqda gedirdi döyüşlərin,

Hər kəs aydın görürdü bu igidin hünərin.

*Neçə il işğal altda inləyən torpaqların,*

*Həsrətdən gözlərində yaş donan insanların,*

*Ah-naləsi qalmışdı hər dağda, hər dərədə, Onları da düşündü Nəbi bu vaxt bu vədə.*

Nəbini hər kəs sevir, bu rəşadət, bu şanla,

Hətta Hikmət Mirzəyev görüşmüşdü onunla.

Bacısı Həcər həkim arxa cəbhədə idi,

Hər gün ağır xəstələr, yaralılar gəlirdi.

Ölümdən qurtarırdı bəzən ağır xəstəni,
Yatmırdı bütün günü, dincəlmirdi gecəni.
Tez-tez danışırdı o qardaşı Nəbi ilə,
Ona dayaq olurdu xoş sözlü diləyiylə.
Vətən torpaqlarında müharibə gedirdi,
Hər gün rayonlar, kəndlər, hey azad edilirdi.

Hər gün şəhid xəbəri, ölüm ilə üz-üzə, Zəfərimiz uğrunda gedirdi mübarizə.

Artıq azad olmuşdu Füzuli, Suqovuşan,
Cəbrayılla Qubadlı, bir də gözəl Zəngilan.
*Hər gün ölkə başçısı xəbərləri verdikcə,*
*Cəsur öğullarımız torpaq azad etdikcə,*

*Fərəhlənir, sevinir hamı ayağa durur, Azadlığın eşqiylə ürəklər eyni vurur.*

*Ağdamın, Ağdərənin alınması xəbəri, Bürüyür bircə anda, bürüyür hər bir yeri.*

*Hətta xaricdə olan soydaşlar da sevinir*
*Hamı bu şad xəbərə xoş danışır, xoş dinir.*
*Noyabrın 20-si Ağdam alınan günü,*
*Hamı bayram eylədi sanki bu toy-düyünü.*

*Kəlbəcər, Laçın haqda danışıqlar gedirdi, Bu rayonlar döyüşsüz azad ediləcəkdi.*

*Silahsız, döyüşmədən alınaraq bu yerlər, Qəhrəman Ordunuza sakit təhvil verdilər.*

Ağdam, Laçın, Kəlbəcər qurtulmuşdu işğaldan, Qurtulmuşdu o zalım düşmənin caynağından. Əsir düşmüş Xocalım, Xankəndim, Xocavəndim, Mədəniyyət beşiyi Şuşadır bazubəndim.

Onları almaq üçün dəstələndi oğullar,
Yenə də əmir gəldi, dayanın dedi onlar.
*Bu xəbərdən məyusluq duysa da döyüşçülər,*
*Ancaq döyüş əmrinə onlar hazır idilər.*
*Ermənilər yenə də hiyləyə əl ataraq,*
*Laçına gələn yolda qoşunuyla yataraq, Fikirləşdilər yalnız ya Qırmızı Bazardan,*
*Ya da Laçın tərəfdən keçəcəklər oradan*
*Düşündülər başqa yol yoxdu Şuşaya girmək, Buna ağıl lazımdı, bir də dərin düşünmək.*
*Belə ağlın sahibi Hikmət Mirzəyev idi,*
*Qayalarla Şuşaya girmək əmrini verdi.*
*Xüsusi Təyinatlıların rəisidi bu igid, Vətənimin ürəyi, nəfəsidi bu igid.*
*Bizim cəsur igidlər tez Daşaltı tərəfdən*
*Sıldırım qayalara dırmaşaraq hər yerdən.*
*Yeriyib düşmən üstə, əllərində bıçaqla,*
*Yorulmadan getdilər tək piyada ayaqla,*
*Uzun bir yol keçərək, qorxu bilmədən onlar*
*Kəsib düşmən üstünü bir anlıq dayandılar.*
*Bircə güllə atmadan, sakit irəliləyərək,*
*Düşmənin həmləsini darmadağın edərək*
*Düşmən gözü bərəlmiş, mat qalmışdı bu işə, Bu qəfləti hücumdan düşmüşdülər təşvişə.*
*İndi tanıdı onlar Azərbaycan oğlunu, Azərbaycan igidi sübut etmişdi bunu.*
*Pərən-pərən olmuşdu dığalar bircə anlıq,*
*Onlara bu basqılar qalmışdı çox qaranlıq.*

*Gəbərmişdi it kimi meyitləri hər yanda,*
*Qalanları qaçaraq gizlənmişdi qınında. Qurtarmışdı Şuşamın canı mənfur düşməndən, Rahat nəfəs alırdı doğma olan bu vətən.*
*Ali Baş Komandanın səsi gəldi efirdən,*
*"Şuşamız alınıbdı" deyə səsləndi birdən.*
*Sevinirdi xalqımız, sevinirdi hər bir kəs,*
*Yayılmışdı hər yana bu vətən haraylı səs.*
*Komandir Mirzəyevin döyüş əmri səsləndi,*
*Hazırlaşın bu gecə alınmalıdı Xankənd,*
*Sonra onun dalınca alınmalı Xocavənd!*
Girmişdi Xankəndinə, alınmışdı yarısı,
Alınacaqdı sonra Xocalının qisası. Lakin imkan vermədi "rusun sülhməramları",
Yenə oyun oynadı imperiya tulaları. Dözmədi haqsızlığa igidlərimin qanı,
Uca dağlar aşaraq tez aldılar Şuşanı.
Bu silahsız dəstələr, xüsusi təyinatlar,
Əlbəyaxa döyüşüb düşməni susdurdular.
Aldılar Şuşamızı Nəbigilin dəstəsi,
Yayıldı hər bir yana qələbənin son səsi.

***

Şuşa həbsxanası...
Var burda neçə dustaq.
Neçə ölüm kürsüsü,
Neçə ömürdan qıraq.
Öz doğma torpağında,
Gavur düşmən əlində Neçə ildi sevdiyi.

Vətən sözü dilində.
Nəbi öz dəstəsiylə,
Açır dustaqxananı.
Açır ürək ağrıdan,
Ölüm qoxan zindanı. İçərdə yeddi nəfər
Qocalıb əldən düşmüş,
Qoca döyüşçülərdi,
Hər birisi qəhrəman, Hər birisi bir ərdi. Birinci mühəribədən
Əsir düşmüş igidlər. Hər gün can verə-verə, Hər gün ölmüş igidlər.
Neçəsi həlak olub,
Vidalaşmış həyatla.
Neçəsin sağ aparmış,
Düşmən çox ehtiyatla.
Nəbi onları tutur sorğu-suala bir-bir,
Hardan, kim olduqları haqda xəbər öyrənir.
Bir qoca əldən düşmüş dustağın adı Nəbi, Yoldaşın adı Həcər, oğlunun adı Nəbi.
Soruşanda söyləyir, "Qubadlıdanam oğul,
Mollu kəndindənəm, əslən ordanam oğul".
Eşitdikcə Nəbinin ürəyi tir-tir əsir,
Ola bilməz bu qədər insan sağ qala əsr.
Bu atasıdır onun, ölməyib sağ qalıbdı, Atasının yerinə kimsə şəhid olubdu. Hətta qəbrin üstünə yazılıb ad-soyadı,
Əsir olan bu ata daşıyıb şəhid adı.
Atılır atasının üstünə dərhal onun- Qucaqlayıb öpərək sevələyir boyunu.

Ata-bala sevinir bu qəfləti görüşə,
Yanındakı dostlar da mat qalmışdır bu işə.
Tapşırır dustaqları hərbiçi yoldaşlara,
Tez aparın onları, çatdırın doğmalara.

Atanın vəziyyəti bu an çox kəskinləşir, Eşitdiyi xəbərdən halı bir az pisləşir. İnanmır qarşısında onun oğludu duran, İnanmır sinəsində ürəyidi sağ vuran. *Xəbər tutur bu işdən Hikmət Mirzəyev bu an, Dərhal tədarük görür fövqə getməyir zaman.*

*Zəng edərək Nəbiyə Bakıya getmək üçün, İcazə verir ona dərdinə yetmək üçün.*

*Atanı aparmağa Helekopter göndərir,*
*Bu barədə Nəbiyə dərhal xəbər də verir.*
*Beləliklə, Nəbini Bakıya gətirirlər,*
*Xəstəxanaya onu dərhal yerləşdirirlər.*

Sağalmasına onun çox az bir ümid qalmış, Ömrünün çoxu getmiş, əsirlikdə qocalmış.

Bacısına xəbəri çatdırır ehtiyatla, Tələsir burda zaman, dəqiqəylə, saatla.

*Həkimlərlə bərabər göstərir qulluq ona,*
*Çoxdandır həsrət qalmış sevimli atasına.*

*Hazırdı oğul kimi canından can verməyə, Allaha dua edir ona kömək etməyə.*

*Atasına sevərək qulluq eyləyir Nəbi,*
*Xoş arzu, xoş sözləri ona söyləyir Nəbi.*

*O, ata sevincini yaşayır çox qürurla, Atası bu sevinci yarı bölür onunla.*

*Sığallayır başını sinəsinə sıxaraq,*

*Ata-oğul sevinclə bir-birinə baxaraq.*
*Atanın sağalması gün-gündən irəliləyir,*
*Hər kəs bu xoş gün üçün çoxlu dua eyləyir...*

***

Oğul Nəbi evlənib, qız Həcər ərə getmiş,
Nəbi oğluna Nəbi, qız Həcər adın vermiş.
Beləcə nəvələr də ata-baba adını
Saxlamışdı hər biri doğma ad, soyadını.
Eyni sənət, eyni ad
Yazılır onların da Ömürlərinə heyhat...
Ata Nəbi bu ağır xəstəlikdən sağalır,
Hər kəsin köməyiylə artıq ayağa qalxır.
*Oğul fikirləşir ki, atası sağalıbdır,*
*Ananı gətirməyin artıq vaxtı çatıbdır. Oğul tez anasının başın üstün kəsdirir, Onu bu müjdə üçün aparmağa tələsir.*
*-"Ana, ay ana, sənə gözəl bir xəbərim var,*
*Amma heç nə soruşma, hər şey bilincə nolar.*
*Əynini gözəl geyin, birgə gedək mənimlə,*
*Unudaq qəm-kədəri, deyək-gülək mənimlə.*
*Gətirir anasını atasıyla görüşə,*
*Bütün qohum-əqraba sevinirlər bu işə.*
*Xəstəxanaya girən, ana bir anlıq çaşır,*
*Xəyalları çox olan keçmişində dolaşır.*
*Nəbi sevincək halda anasına üz tutub,*
*Qəlbindəyaşatdığı ata dərdin unudub...*
*Başına gələnləri danışır anasına,*
*Sanki bir həyat verir gülüzlü sonasına.*

*Ana inana bilmir gəlib  yar görüşünə,*
*Neçə illik həsrətin, sevginin səcdəsinə.*
*Gözlərinə inanmır  o cavan Nəbisindən,*
*Bir əsarət qalmamış, onun gözəl sinindən.*

Yenə də inanmayıb çox tərəddüt eyləyir, Nəbi çox cəsarətlə ona belə söyləyir:

-Deyirdin ki, nə zaman itsən səni tapacam,
Boynundakı xalından mən səni tanıyacam".

Həcərin gözlərindən yaş sel kimi axırdı, Neçə illik həsrətin gözlərinə baxırdı.

Allahına şükr edib düşür ayaqlarına,

Göz yaşlarıyla baxır  boynundakı xalına. Sevincdən qışqıraraq, bizim Nəbidir, deyir Qarşında diz çökərək ona səcdə eyləyir.

-Yuxuma çox gəlmisən, sağ olmağın bilirdim, Sanki hər gün, hər gecə yolunu gözləyirdim.

İnanmırdım o şəhid məzarı sənin idi,
Sanki yad bir insanın olması bəyan idi.
Fəxr edib inanmışdım şəhid olmusan deyə,
Yığılmırdı yollardan ancaq gözlərim niyə...
Otuz ildi mən səni şəhid kimi bilsəm də,
Gizlin-gizlin ağlayıb, gizlin-gizlin ölsəm də...
Bilirdim ki,  hislərim, yuxum yalan deyilmiş,
Mənim Nəbim  sağ imiş, mənim Nəbim ölməmiş.
Daha verməərəm səni bil, ölümün əlinə,

Batmarıq heç bir zaman qəm-kədərin selinə. Daha qorxma ölümdən, mən ölüncə qulunam,  Yenə həmin Həcərin, yenə həmin sonanam.

***

Nəvə Nəbiylə Həcər dolanırlar başına,

Babanın göz yaşları qarışır göz yaşına. Allahına üz tutub bu xoşbəxt günü üçün, Baba dua eyləyir onlara baxıb hər gün. Nə yaxşı ki, ölmədim bu günləri də gördüm,

Övladlarımın bu gün şirin barını dərdim.

Oğlum Nəbiylə qızım Həcərin övladları, Nəbi, Həcər adını bölüblər mənlə yarı.

Maşallah böyüyüblər onlar da bizim kimi, Olacaqlar bu nəslin baş tacı, baş hakimi.

Baba Nəbi haqlıydı dediyi hər sözündə,

Oğlu, qızı, nəvələr bir dünyaydı gözündə.

Hər birisi Həcərdi, hər birisi Nəbiydi,

Sənətləri də eyni, adları da eynydi.

Bu heyranlıq içində baba Nəbiylə, Həcər,

Yaşadılar bir müddət, yaşadılar bəxətəvər.

Artıq nəvələri də ali təhsil alırdı,

Onların hər birisi doğma Bakıda qalırdı.

Qocalmışdı baba da, qocalmışdı nənə də,

Bu qocalıqdan baxıb, fəxr edirlər yenə də.

Artıq babayla nənə nəvə toyu istəyir,

Çağırıb oğlun, qızın bir məsləhət eləyir. Ata-oğul Nəbilər, ana Həcər, qız Həcər, Otururlar üzbəüz, açılır saf ürəklər.

Ata Nəbi başlayır sözünə çox ahənglə,

Nənə Həcər bu sözə naxış vurur min rənglə.

Ay bala, nəvə toyu istəyir ürəyimiz,

Daha Allahdan bizim yox başqa diləyimiz.

Çox şükür ki, nəvələr boya-başa çatıblar, Evlənmək vaxtlarıdır, artq yaşa çatıblar.

Könlümüzdən keçir ki, onları evləndirək,

Bibiqızı, dayıoğlun bir yerdə xoşbəxt edək.

Razılığın alsaydıq toylarını edərdik, Biz də ki, bu dünyadan rahat ölüb gedərdik.

Hər iki bacı qardaş bu sözdən xoşhal olur, Ürəkləri açılır, gözlər sevinclə dolur. Demə Nəbiylə Həcər bir-birini sevirlər, Ancaq ata-anadan bunları gizlədirlər.

Xeyir-duasın edib dayoğlu, bibiqızın,

Şamını yandırılar bir cüt yanar ulduzun. Şükür edir Yaradana, şükür edir valideynlər, Taleyin xoş gününə ürəkdən sevinirlər.

Həyat verir onlara, övladların sevgisi,

Yayılır hər bir yana bu taleyin xoş səsi. Nəvə Nəbiylə, Həcər xoşbəxt həyat qururlar, Baba Nəbiylə Həcər ömrü başa vururlar.

Burada başa çatır bizim də dastanımız,

Qoy bəxtiyar yaşasın bütün cavanlarımız!